**Günnur Ağayeva**

# MUNİS YAZILAR - 2

***(Zaur Ustacın 50 yaşına)***

(YAZARLAR DƏRNƏYİ)
XLIII KİTAB

Bakı - "USTAC.AZ" nəşrləri - 2025

**Günnur Ağayeva  (Ağayeva Günnur Hafiz qızı)**

# “Munis yazılar - 2” *(Zaur Ustacınn 50 yaşına)*

Azərbaycan dilində. Bakı - “USTAC.AZ”  nəşrləri - 2025,  100 səh.

**Ön söz:** Cahangir Namazov.
**Redaktor:** Hacıxanım Aida.
**Baş məsləhətçi:** Südabə Məmmədova.
**Son söz:** Pərvanə Salmanqızı.
**Naşir:** Tuncay Şəhrili.

*Kitab Zaur Ustacın 50 yaşına hədiyyə olaraq çap olunur.*

MÜSTƏQİL YAZARLAR KONFEDERASİYASI
“Yazarlar” jurnalının xüsusi buraxılışı (QN : 2319).
XLIII  buraxılış. Yazarlar XB N:043  (100) 25.07.2025.
Kod: 063-04-MZM-14-20-25

©Yazarlar.az, 2025.
©Ustac.az, 2025.
©Z.Ustac,  2025.



**Zaur USTAC** (1975) – "Yazarlar" jurnalının baş redaktoru, şair, publisist, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü.

# ÖN SÖZ

## *MİLLİ DƏYƏRLƏRİ QORUYAN ŞAİR*

Zaur Ustac, çağdaş Azərbaycan ədəbiyyatında özünəməxsus yeri olan bir şair, yazıçı və publisistdir. 1975-ci ildə Bakı şəhərində doğulmuş olan Zaur Ustac, 1988-ci ildən başlayaraq mətbuatda fəaliyyət göstərir və 40-dan artıq kitabın müəllifi kimi ədəbiyyat dünyasında geniş tanınır.
Onun yaradıcılığı, həm milli ruhu, həm də müasir dövrün sosial və siyasi məsələlərini dərindən təsvir edən, oxucularını həm düşündürən, həm də dərindən hiss etdirən bir keyfiyyətə malikdir.
Z. Ustacın şeirlərindəki milli məzmun, vətənpərvərlik və tarixə dair dərindən düşüncələr, onu müasir Azərbaycan poeziyasının aparıcı simalarından birinə çevirib.
Onun şeirlərindəki əsas mövzu Azərbaycan xalqının milli kimliyi, tarixi və torpaq sevgisi ilə bağlıdır.
Bu xüsusiyyətləri ən çox “Bayraq, Bizim Bayrağımız”, “Araz”, “Sevin, a Təbriz!” və “Ana Dilim” kimi şeirlərində müşahidə etmək mümkündür.
Bu şeirlərdə yazar, milli mübarizə və vətənpərvərlik mövzularını bədii şəkildə işləyir.

“Bayraq, Bizim Bayrağımız”

Bu şeir, millətin vətənə, torpağa olan bağlılığını və hər bir kəsin öz kimliyini qorumağa olan vəzifəsini ön plana çıxarır.
Z. Ustacın “Bayraq, Bizim Bayrağımız” şeirində,

Azərbaycan bayrağı və onun dalğalanması milli mübarizənin simvolu kimi təqdim edilir.

"Üstündən yüz Araz axsın,
Torpaq, bizim torpağımız!!!"

misraları, Azərbaycanın hər iki tərəfinə olan məhəbbəti və həmçinin, Araz çayının sərhəd kimi təcəssüm etdirilməsi millətə aidiyyət hissinin güclü təzahürüdür. Şeirin hər bir misrasında torpaq və bayraq, bir millətin birlik və bütünlüyünün əks-sədası kimi vurğulanır. Ustac burada həm də Azərbaycan xalqının coğrafi sərhədlərindən asılı olmayaraq, vətən sevgisini göstərməkdədir.
"Araz"şeiri isə milli kədər və həmrəylik mövzusunu işləmiş bir əsərdir.
Zaur bəy bu şeirində Araz çayını bir simvol kimi istifadə edərək, onun iki sahilindəki Azərbaycan torpaqlarının kədərini, ayrılığını və birliyini dilə gətirir.

"Arazı heç zaman qınamadım mən,
Hər iki tərəfə məhrəmdir Araz!"

misrası ilə, həm Qərbi Azərbaycan (Güney Azərbaycan) həm də Şimali Azərbaycanla bağlı yaranmış ayrı-seçkiliyi və torpağın bölünməsinin acı təsirlərini hiss etdirir.
Arazın suyu, bu dualı torpaqlara məlhəm kimi təsvir olunur; bu, həm də xalqın bölünmüşlük və acı çəkən məqamda birləşmə arzusunu göstərir.

Şeirdəki “Yaralı torpağa məlhəmdir Araz!” misrası, həm də tarixən yaralanmış və mənəvi baxımdan sarsılmış bir xalqın təmizlənməsinə olan ehtiyacı işarə edir.
“Sevin, a Təbriz!” şeirində isə, Azərbaycanın güneyindəki Təbriz şəhərinə olan mənəvi bağlılığı ifadə edir.
Bu şəhər, Azərbaycan xalqının qədim mədəniyyətinin, dilinin və tarixinin mərkəzlərindən biri olmuşdur.
Şeir, Təbrizə olan sevgini və burada yaşanan ayrı-seçkilikləri əks etdirir. Ustac burada həm də bir çağırış edir, bu dəfə biryolluq bitəcək olan ayrılıqlara, “Nə güzəşt olacaq, nə də ki, aman!” – deyərək, milli birliyin vacibliyini vurğulayır.
Bu şeir, həm də müasir dövrdə yaşanan sosial və siyasi məsələlərə diqqət çəkir, ayrılığın artıq dayandırılmasının zəruriliyini göstərir.
Təbrizdəki vəziyyətin təsvirində, Ustac öz xalqının birliyinin və gələcəkdəki arzularının ifadəsini tapır.
Zaur Ustacın “Ana Dilim” şeiri, milli kimlik və dilin qorunmasının əhəmiyyətini vurğulayan bir digər əsəridir.
Bu şeirdə dil, yalnız bir ünsiyyət vasitəsi deyil, həm də xalqın kimliyinin qorunması üçün vacib bir amil kimi təqdim edilir.

“Bu dil, Tomrisin dilidir;
Layla deyib, Hökm verib…”

misralarında isə Ustac, Azərbaycan dilinin tarix boyu bu xalqın mədəniyyətini və irsini qoruyub saxladığını, xalqın dədə-baba söhbətlərini və qədim ənənələrini yaşatdığını qeyd edir.
Ana dili, şairin baxış açısına görə, sadəcə bir vasitə deyil, həm də millətin sərhədini müəyyən edən bir "sərhəd" və "tabu"dur.
Zaur Ustacın yaradıcılığı, müasir Azərbaycan ədəbiyyatında yalnız bir şairin poeziyasından daha çoxunu təqdim edir.
Onun əsərlərindəki milli məzmun, Azərbaycan xalqının tarixinin, mədəniyyətinin və dilinin qorunması mövzusunda ciddi bir elmi yanaşma da mövcuddur.
Ustacın şeirlərində, xüsusilə "Araz", "Bayraq, Bizim Bayrağımız" və "Ana Dilim" kimi əsərlərində göstərilən milli hissiyat, Azərbaycan ədəbiyyatında ənənəvi olaraq davam etdirilən vətənpərvərlik mövzusunun müasir dövrdə də necə əhəmiyyətini qoruduğunu göstərir.
Z. Ustacın yaradıcılığı həm də onun bu günkü Azərbaycan cəmiyyətinin mənəvi ehtiyaclarına cavab verən bir nümunədir.
Onun şeirləri, xalqa öz tarixi kimliyini, köklərini və xalqın bütün bölgələrində yaşayan insanlarını birləşdirən güclü bir mesaj verir. Ustacın əsərlərindəki yüksək vətəndaşlıq mövqeyi, oxucuları təkcə estetik baxımdan deyil, həm də sosial, mədəni və tarixi mənada dərindən düşündürür.
Bir çox digər çağdaş şairlərdən fərqli olaraq, müəllif həm müasir, həm də ənənəvi Azərbaycan ədəbiyyatını birləşdirərək, hər iki cərəyanın ən güclü

tərəflərini özündə birləşdirir. Onun yaradıcılığı həm də milli dəyərləri yaşatmaqla bərabər, zamanın tələblərinə uyğun şəkildə bədii ədəbiyyatın sərhədlərini genişləndirir.
Zaur Ustac, Azərbaycan poeziyasına özünəməxsus bir təsir göstərmiş, şeirləri ilə oxuculara milli birlik və mübarizə, dil və mədəniyyətin qorunması mövzusunda güclü mesajlar göndərmişdir.
Onun əsərlərindəki dərindən düşünülmüş milli məzmun, Azərbaycan ədəbiyyatının inkişafına mühüm töhfədir. Onun şeirlərindəki təhlil edilən mövzular, həm müasir Azərbaycan cəmiyyətinin ehtiyaclarına uyğun gəlir, həm də tarix boyu formalaşmış Azərbaycan ruhunu yaşadır.
Zaur Ustacın poeziyasını oxumaq, yalnız bir şairi deyil, həm də bir xalqın tarixini, milli kimliyini və mübarizəsini anlamanıza kömək edir.
Zaur Ustaca həm yaradıcılığında, həm də həyatında böyük uğurlar arzulayıram!
Onun poeziyası, həm milli dəyərləri qorumağa, həm də yeni nəsillərə ilham verməyə davam etsin.

**Cahangir NAMAZOV,**

*yazıçı, şair, tərcüməçi (Özbəkistan)*

# MUNİS YAZILAR

# ZAUR USTAC – QƏLƏMDAR OLMAQ MİSSİYASI

Tanıdığım istedadlı gənclər sırasında olduqca işgüzar, zəhmətkeş, obyektiv, prinsipial, hər cür manipuliyasiyadan uzaq, sözə-qələmə bağlılıq, həssaslıq, sözü-qələmi müqəddəs hesab edən və bu müqəddəsliyi hər məqamda qorumağa çalışan, içində klassik, modern maarifçilik ruhu daşıyan, bir sözlə, qələmdar olmaq missiyasını Heraklsayağı çiyinlərinə götürən, yaradıcılığın Sizif cəfasına qatlaşan gənclərdən biri də Zaur Ustacdır. Olduqca səmimi, təvazökar qələmdardır və bu yeni sözü, yeni anlayışı da ədəbiyyat cameəsinə gətirən odur.

Zaur Ustacın müasir ədəbiyyatımızda vicdanlı, tərəfsiz, liberal - azad, sərbəst ədəbi davranışı təqdirəlayiqdir və deyərdim ki, yenidir, müasir ədəbi gəncliyə örnəkdir. Zaur Ustac radikalizmdən uzaq, sözün səmimiyyətinə sığınan qələmdardır. Zaur Ustac gənc olmasına baxmayaraq (hər halda məndən çox gəncdir), o, özündə elə bir yaradıcılıq gücü tapıb və ədəbi sifera yaratmağa müvəffəq olub ki, artıq onun özgür ədəbi nüfuzu, özgür yaradıcı çəkisi haqqında çəkinmədən danışmaq olar. Mənim qənaətim belədir və bu qənaəti ictimailəşdirməmək günah olardı. İstedadı və istedadlı ədəbi gücü məqamında görmək və qiymələndirmək, fikrimcə,

mühüm əhəmiyyət kəsb edir. Bizim ədəbi tənqid üçün belə yanaşma prioritet olmalıdır.

Zaur Ustac maraqlı həyat yolu keçib, hərbçidir, istefada olan zabitdir. Onda hərbçi peşəsindən ədəbi yaradıcılığına sızan bir yaradıcılıq intizamı, ədəbiyyata yansıyan hərbçi "geosiyasi marağı" olduğunu sezirəm. Yaxşı bildiyini müdafiə etmək, onu ədəbi fikrə gətirmək, yeni nəsilə, gəncliyə əlahiddə vətənpərvərlik ruhu aşılamaq və bu işi maarifçilik səviyyəsinə yüksəltmək – onun ən ümdə "geosiyasi marağı" budur və bu da yenidir. Və bu, Zaur Ustacda istək, arzu deyil, deyərdim ki, onun şəxsi xarakterinə tamamilə yad, amma yaradıcılığına xas olan ədəbi ambisiyadır, ədəbi-bədii fəaliyyətinin nüvəsini təşkil edən amildir, ona məxsus ədəbi statusdur. Elə buna görə də onun yaradıcılığı çoxsahəli, çoxyönlü, çoxsəsli, polofondur...

Zaur Ustacın ədəbi fəaliyyəti çağdaşlıqla bərabər, ən çox gələcəyə, perspektivə yönəlikdir. Onun yaradıcılığı, həm də yaxşı olacaq dərəcədə sosialyönümlüdür. Zaurun fəaliyyəti səmərəli fəaliyyətdir, praktik iş görür, həyatın olaylarından çıxış edərək özünün yazılarında olaya çevrilir, olay içində olay yaradır. Yaddaşı çağdaşlığa daşıyır. Bir az obrazlı desək, qədimliyə bürünmüş yenilikdir, istər ədəbi mövzüda, istərə də ədəbi janrda... Onun yaradıcılığı impultiv deyildir, ardıcıllıq, mütəmadilik,

məqsədyönlülük, prinsipiallıq üslubunu, yazı-mövzu yönümünü-yöndəmini şərtləndirən amillərdəndir. Ona görə də Zaur Ustacın yaradıcılığı bezdirici deyil, maraq doğurur, fəaliyyətə sövq edir, ədəbi zərurət olur...

Zaur Ustacın ədəbi fəaliyyətinin bir yönü də onun mövzu seçimidir. O, əksərən baxımsız qalmış, gözdən-könüldən iraq salınmış, unudulmuş yox, unutdurulan mövzulara da ürəklə, cəsarətlə göz yetirir, necə deyərlər, kölgədə saxlanılan həqiqətləri gün işığına çıxarır, yaddaşları dirildən kitaba çevirir. Bu da onun vətənsevərliyini fərqləndirən cəhətlərdəndir. Çünki o, sosial-ictimai maraqla mənəvi marağın kəsişmə bucağını müəyyən etməyi bacarır. O, ədəbi ştamplardan uzaqdır. Tarixi-mənəvi müstəvimizdə gəzişmələr edir. Maraqlı, aktual bədii konsepsiyalar, orijinal ədəbi konfiqurasiyalar axtarışındadır. Total azərbaycançılıq tərəfdarıdır. Bütün bunları, - hələ bizim sosial durumumuzu əyən bazar iqtisadiyyatının ərkəsöyün diqtəsi dövründə etməyin çətinliyini demirəm, - əzabını, məşəqqətini göz önünə gətirin... Amma şükürlər ki, onda qara duyğular yoxdur, dan şəfəqinin duruluğu, lacivərdliyi var. Bir də ki, onun yazılarında hər şeyi öz adı ilə çağırmaq istəyi üstündür və bu, ədəbi yaradıcılıq üçün vacib şərtlərdəndir. Yazıçı məşşatə olmamalıdır.

Zaur Ustacın qələmi kənarda yox, özəkdə, nüvədə gəzişmələr edir. O, həmişə çalışır ki, standart və ehkamlar yaradıcılığına yansımasın. Diqqətimi çəkən müsbət bir cəhət də odur ki, Zaur Ustac azərbaycançılıqla türkçülüyün sinergizmindən çıxış edir, yəni söhbət sosial-fəlsəfi mənada özünütəşkildən gedir. Burada eyniyyət yox, biri-digərinin qüvvətləndiricisi olmaq şərtdir. Yəni, türkçülük və azərbaycançılıq biri-digərinin tərkibidir, amma biri o biri deyil, hər ikisi müstəqildir. Bunların dərkində paralellik və ya qəti oxşarlıq axtarmaq sosiallaşmada ziyanlıdır, bu metodda qeyri-xəttilik üstündür (Lütfi Zadə metodu). Zaur Ustac ədəbi-metodoloji cəhətdən sinergetik yanaşma paradiqmanın metodoloji plüralizminə daha çox meyillidir. Əlbəttə, bu, onda hələ rüşeym halındadır, amma inanırıq ki, təməldə olan dinamikadadır, inkişafdadır. Belə ki, ədəbi yaradıcılıq mexanizmlərin ardıcıl fəaliyyətini nəzərdə tutan bu metod, insan varlığının hərtərəfli inkişafı, şəxsiyyətin özünüifadə və özünütəsdiq imkanları və bütövlükdə yaradıcılıq qabiliyyətlərinin reallaşdırılması üçün ən əlverişli şərait yaradır. Zaur Ustacda türkçülüyü və azərbaycançılığı təkcə qanla, soyla bağlamır, həm də şüurla bağlayır. Bu, əslində, Əli bəy Hüseynzadə, Məmməd Əmin Rəsulzadə və Əhməd bəy Ağaoğlunun konsepsiyasıdır. Biz qanla, soyla türkük, amma şüurla,

düşüncəcə, təfəkkürcə Azərbaycanlıyıq! Bu, populizm deyil, həqiqətdir!

Zaur Ustacın qələm yoldaşları yazılarında orijinallığı qeyri-ənənəvi yollarda axtarırlar, amma onun məni qane edən cəhətlərindən biri də ənənvi yolda qeyri-adiliyi tapmaq və müxtəlif ədəbi ölçülərdə (deyək ki, janrlarda) şərh etmək bacarığıdır. Xalq həyatının müxtəlif məqamlarında, ən ağır anlarında, millətin şərəf və ləyaqəti naminə ayağa qalxmış, onun oğulları vətən yolunda qorxmadan dirigözlü ölümə gedən, "şər yuvalarına", az qala əliyalın hücum çəkən oğulları – kişiləri, ərənləri, igidləri barəsində (məsələn, mərdliyin, igidliyin, qəhrəmanlığın oriyentir ulduzu olan Mübariz İbrahimov haqqında) bədii-publisist yazıları da belə xoş məramın nəticəsində ortaya gəlir, "yazıya pozu yoxdur" yaddaşına çevrilir, yaddaş kitabı olur: "Oriyentir ulduzu" (povest), "Gülünün şeirləri", "Otuz ildir əldə qələm", "Əliş və Anna" (poema), "Sevin ki, seviləsiz", "Qəlbimin açıqcası", "Çəhrayı kitab" və s. kimi iyirmidən çox kitabı kimi... Doğrudan da bu kitabları bir yerə cəm etsək, elə adını "Qəlbin açıqcası" qoyardım, çünki bu əsərlərin, demək olar ki, hamısı Zaur Ustacın oxucuya ünvanladığı ədəbi-bədii açıqcalardır, özü də səmimiyyətlə yoğrulmuş, ürəkdən, qəlbdən süzülüb gələn gizlinlər yox, məhz açıqcalar. Bir bayatısında dediyi kim, onun "can evindən qopub düşən" namələrdir. Bundan əlavə, o,

ümumtəhsil məktəbləri üçün metodik vəsaitlərin, dərsliklərin, proqramların da maarifçi müəllifidir.

Bu məqamda, onun milliliyə, vətənsevərliyə, yurdabağlılığa söykənən bilgisi, axtarış və tapmaq şövqü məmnunluq doğurur. Bu, əslində, müasir Azərbaycan zehniyyətinin bənzərsiz xüsusiyyətindən irəli gəlir – unutqanlıq sindiromundan qurtuluş yolunu tapmaq və bunu şahrah yola çevirmək cəhdi. Bunu mənəvi ehtiyacları ödəyən, əsrarəngiz Azərbaycan ruhunu bərpa edərək epik bir prinsipə çevirmək cəhdi kimi də qəbul etmək olar. Əslində, indi bu prinsipi yaratmağa əşəddi ehtiyac var! Mənə elə gəlir ki, Zaur Ustac müstəqillik dövrü ədəbiyyatımızın, xüsusən, tarixi mövzularda qələmə alınan nəsr nümunələrinin yaratdığı ovqatdan güc alır, “Əliş və Anna” poemasında olduğu kimi, özünün istehlak enerjisinə çevirir, bu günün praqmatizmindən çıxış edir, yuxarıda qeyd etdiyim kimi, qədimliyə bürünmüş yenilik yaradır.

Gerçəyi dərk etməyin üsulu təkcə ağılla deyil, gərək ürəklə – hiss və duyğuylarla da dərk edəsən. Bu cəhət, hələlik embirional səviyyədə onun bədii təfəkkürünün dominantına çevrilməyə başlayıb və inanıram ki, tam dominantlıq alınacaq. Zaur Ustacın bir xoş prinsipi də var, ətrafına, mühitinə əlindən gələn yaxşılığı et! Bu deviz onundur: ”Yaxşılıq əlindən gəlmir, heç olmasa pislik eləmə!” O, həyatının bu

çağına qədər hər cür formatda təzahür edən, min bir cildə girən pisliyə qarşı Ustac qələmini sipər edərək Qələmdar olmağı bacarıb, qələmin yükünü, sözün müqəddəsliyini dərk etdiyindəndir ki, "Söz müqəddəsdir" şeirində yazır:

***Gəldin bu aləmə, ərkanı gözlə,***
***Yaxşı bax ətrafa, dövranı izlə,***
***Ustac əmanəti, aram ol sözlə,***
***Qələmlə elə yaz, qoy izi düşsün.***

Zaur Ustacın (Mustafayev Zaur Mustafa oğlunun) 45 yaşı var, ardıcıl olaraq Bakı Dövlət Universitetində, Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində, Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutunda və Şamaxı Humanitar Kollecində təhsil alıb. Birinci Qarabağ müharibəsinin iştirakçısı və hazırda ehtiyatda olan zabitdir. 1988-ci ildən yaradıcılığa başlayıb, 32 ildir ki, ədəbi cameənin əli qələmli nümayəndəsidir. Ləqəbi "Ustac"dır; AJB-nin üzvü, "Qızıl Qələm" mükafatı laueratı, "Yazarlar" jurnalının təsisçisi və baş redaktoru, "Ustac.az" fərdi inkişaf və yaradıcılıq mərkəzi"nin təsisçisi, naşir, müasir dövrün maarifçi-demokratıdır. İntellektualdır, kreativ təfəkkürlü, qüvvətli və sağlam məntiq sahibidir. Mən onu təmiz qəlbli, doğru sözlü, mətanətli, tam mənası ilə dürüst, fikir və yoluna dərin bir inam bəsləyən,

fədakar bir gənc yazıçı-publisist, şair, nasir, tərcüməçi, naşir, ən ümdəsi, ziyalı kimi görür və belə də qiymətləndirirəm... Və bir yazıçı olaraq Zaur Ustacın gələcək çəki-düzənini bu sadaladıqlarımda, konkret mövqeində, QƏLƏMDARLIĞINDA görürəm. Eyni zamanda, toz qonmayan Qələmdar qürurunda, təmkinində görürəm! Çünki bilirəm ki, təmkin və qürur mənəviyyatı hər zaman bütün fəsadlardan, yanlışlıqlardan qoruyar... ALLAH QORUSUN!

*28.04.2020. Bakı.*

**Qurban BAYRAMOV**,
*ədəbiyyatşünas, tənqidçi*

## SEVGİ DOLU ŞEİRLƏR

Şairlər çiçəklərə, güllərə sevgi dolu şeirlər həsr edərlər. Əsrlər boyu bənövşə, lalə, qərənfil, qızılgül poeziyamızın əbədi obrazlarına çevriliblər. Qurbaninin «Bənövşə»si yüzlərlə bənövşələrin şeirimizdə ətirli sərgisinə dönüb, «Heç yerdə görmədim düz bənövşəni» deyib ustad. Xətai qızılgülü candan əziz tutduğu sevgilisinə bənzədib: «Qızılgül, bağü-bustanım, nə dersən, Fəda olsun sənə canım, nə

dersən?». Xan qızı Natəvan qərənfili çiçəklərin ən gözəlinə bənzədib, qərənfillər 20 Yanvar faciəsi günləri bütün Azərbaycanı matəm çiçəkləri kimi bəzədilər: «Qərənfil, şəhid qanı, Ağla, qərənfil, ağla». Lalə isə çöllərimizinn, düzlərimizin qırmızı xalısı kimi hamımıza gözəllik bəxş edirlər, Rəşidin mahnısında yaşayır o lalələr.

Şair Zaur Ustac da çiçək sevgilərini şeirlərində dönə-dönə vəsf edir. Onun poeziyasında güllərin, çiçəklərin ayrıca bir hüsnü, lətafəti var- bu güllər, çiçəklər insan qəlbinin təbiətlə vəhdətini əks etdirir. İnsan niyə gül-çiçək aşiqidir, niyə bənövşə ilə həmdərddilər, niyə laləyə – onun gözəlliyinə baş əyirlər, niyə qızılgülləri sevgililin gözəlliyi ilə bir tuturlar? Bu milli-mənəvi dəyərlərimizin bir kriteriyası deyilmi? Poeziyamızda insan-təbiət paraleli – insanda təbiəti, təbiətdə insanı təcəssüm etdirmək klassik poeziyanın da, müasir şeirimizin də aparıcı bir xəttinə çevrilib və bu missiyanı həyata keçirmək Zaur Ustaca
da həvalə olunur.

Zaur Ustac «Ağçiçəyim» və «Şehçiçəyim» şeirlərində özünün çiçək sevgisini mütləqləşdirir. Əslində, o, bu çiçəkləri vəsf edirkən, metaforik bir üsula əl atır-əslində, onun vəsf etdiyi çiçəklər gözəlliyin özüdür, təbiətin gözəllikdə təcəssümüdür.

***Dümağsan, qar sənin yanında qara,***
***Tanrım rüsxət verib, baxmayıb qara,***
***Bu qarlı qış hara, tər çiçək hara,***
***Xoş gördük, günaydın, ay Ağçiçəyim!***

«Şehçiçəyim» şeirində isə həm təbiətin bu nadir çiçəyinin-bu canlı gözəlliyin tərənnümü ilə qarşılaşırıq, həm də bu çiçəyin bir sevgili timsalına döndüyü ifadə olunür.

***Tacısan dünyamda tum çiçəklərin,***
***Köksündən bal süzən, tər Şehçiçəyim…***
***Sehrinə düşmüşəm nur ləçəklərin,***
***Əqli başdan alan zər Şehçiçəyim…***

***Cəzbində qalmışam, tamam çar-naçar,***
***Sağımda, solumda çox çiçək açar,***
***Pərvanəyə dönü, dövrəmdə uçar,***
***Sərrafam, seçmişəm, dürr Şehçiçəyim.***

***Bir kərə, bir anlıq olsa da vüsal,***
***Ruhuma rahatlıq verməyir xəyal,***
***Sonu ölümsə də, gəl qoynuna al,***
***Həsrətlə yaşamaq, zor Şehçiçəyim…***

Çiçəklərə sevgi «İnci, qərənfil» şeirində başqa bir mәna kəsb edir. «Ağçiçəyim» və «Şehçiçəyim»də gözəlliyə vurğunluq hissi ön plana keçirsə, «İnci, qərənfil»də məhzunluq, çiçəyin halına acımaq duyğusu ilə qarşılaşırıq. Bu da heç şübhəsiz, 20 Yanvar qərənfillərinin təəssüratından irəli gəlir.

***Olsan da bu işdə ən son müqəssir,***
***Gəl, məndən incimə, inci qərənfil.***
***Utanc çiçəyisən, utanc çiçəyi,***
***İstəsəın lap məndən inci, qərənfil.***

Şeirdə inci sözü iki məna daşıyır, həm ən bahalı zinət (inci), həm də incimək sözünün kökü (incimək, küsmək) kimi. Şair niyə qərənfilə «qaxınc çiçəyi» deyir? Bəlkə də bu deyimlə razılaşmamaq olar, amma bu «həya örpəyi»nin şəhid qəbirlərinə düzülməsi onu mütəəsir edir. Nəhayət, çiçəklərə sevgi onun «Matah çiçək» şeirində daha bariz nəzərə çarpır. «Matah» sözü burada sırf müsbət mənada işlənir və bütün çiçəklərə aid olur:

***Əzəldən ağ çiçək dedim,***
***Cəzbində Şehçiçək dedim,***
***Gözlədim, Balçiçək dedim,***
***Bərzəx ruha dağ, çiçəyim,***
***Ay mənim matah çiçəyim.***

Zaur Ustacın dağlara həsr etdiyi şeirlər də insan-təbiət vəhdətini əks etdirir. «Dağlar» şeiri «Ruhuna min rəhmət, Dədə Ələsgər» epiqrafl ilə başlayır və hiss olunur ki, bu qoşma ustadın poetik ənənəsini davam etdirmək cəhdindən yaranıb. Zaur Ustac təbiətin – gül-çiçəyin zərifliyindən onun zirvəsinə-dağlara yol alır. Amma bu şeirdə Dədə Ələsgər ruhu dolaşsa da, Zaur Ustac dağlara müasir bədii təfəkkürlə yanaşır.

***Nədəndi, ürəyim çırpınır yenə,***
***Gördükcə hüsnündə məlalı, dağlar?!***
***Yağı cövlan edir, dağıdır yenə,***
***Qoynunda büsatı, cəlalı, dağlar!***

***Dünya belə qalmaz, dəyişər zaman,***
***Yenə dövran olar, həmənki dövran,***
***Bulaqlar başında məclislər quran,***
***Oğullar ərsəyə gələli, dağlar!***

«Dağlar» adlı başqa bir şeirdə isə kövrəklik notları qürur hissləri əvəz edir. Artıq işğalda olan dağlar da azad olunub. Və şair Azərbaycan tarixinin zəfər dolu səhifələrini yada salır:

***Xətai qırmadı könül bağını,***
***Nadir unutmadı hicran dağını,***
***İlhamın silahı əzdi yağını***
***Dəmirdən yumruğun mübarək, dağlar!***

Təbiətin adicə bir yarpağı da şeirə gələ bilər və Zaur Ustac «Yarpaq və torpaq» şeirində Yarpağın və Torpağın obrazlarını yaratmaqla maraqlı bir şeir ərsəyə gətirmişdir:

***Bizə can verənin canın almayaq,***
***Bu iki aşiqin yolun burmayaq,***
***Yarpağı torpağa həsrət qoymayaq,***
***Yarpaq elə torpaq, torpaqdır yarpaq.***

Zaur Ustac bu günün, yaşadığımız gerçəkliklərin şairidir. Biz
onun güllərə, çiçəklərə, dağlara həsr elədiyi şeirlərlə söhbətə başladıq.Yəni şairin zəriflik, kövrəklik hisslərinin təbiət gözəllikləri ilə necə qaynaqlandığını nəzərə çarpdırdıq. Amma Zaur Ustac bir-birindən fərqli müxtəlif mövzularda şeirlər yazır. Bu şeirlərin bir qismi vətənpərvərlik, yurdsevərlik motivləri üzərində köklənib. Onun Mübariz İbrahimova, Polad Həşimova, İlqar Mirzəyevə həsr elədiyi şeirlər bu Milli Qəhrəmanlarımıza poeziyanın bir az hüznlü, amma

daha çox qürurla söylənilən xitablarıdır. «Can ay ana» şeində şair Polad Həşimovun anasının oğlunun məzarı önündə düşüncələrini təqdim edir. «Can ay Ana, bu baxışda nələr var… Bu baxışda Poladının mərdliyi, Ərənliyi, cəsurluğu, qürur var». Onun İlqar Mirzəyevə həsr elədiyi bir neçə şeiri var və bu şeirlərin hər birində qəhrəmanlığın tərənnümü ilə qarşılaşırıq:

***Hər şey belə başladı,***
***Gülə-gülə getmişdin.***
***Döndün üzdə təbəssüm,***
***Çöhrənə həkk etmişdin.***

***Tək getmişdin gedəndə,***
***Yüz min olub qayıtdın.***
***Özün getdin yuxuya,***
***Milyonları oyatdın.***

İkinci Qarabağ müharibəsinin dillərdə dastan olan qəhrəmanlarından biri də Xudayar Yusizadə idi. Ölümündən qabaq Xudayar sözləri Əliağa Vahidin olan bir mahnı oxuyur. İndi bu mahnı-təsnif «Xudayar təsnifi» adlanır. Zaur Ustac Xudayar haqqında sonetlər çələngi düzüb-qoşub. Sonetlər çələngi düzüb-qoşmaq şairdən istedad tələb edir, gərək bu şeir növünün formal tələblərinə əməl edəsən, həm də

on beş sonetdə məzmunu, irəli sürdüyün qayəni, məqsədi sonadək eyni ardıclllıqla davam etdirəsən. Hər sonetin axırıncı misrası sonrakı sonetin ilk misrasına çevrilir və axırda-on beşinci sonetdə yeni bir sonet yaranır. Fikir tamamlanır. On beşinci soneti (italyan soneti formasında) sizə təqdim edirik:

***Xudayar çağırdı anan adını,***
***Şəfqətlə əyilib öpdü üzündən.***
***Səni məhəbbətlə bağrına basdı,***
***Oğul ətri gəldi kövrək sözündən.***

***Böyüdün həyatda ər oğlu ərtək,***
***İstədin yurddaşın olsun bəxtiyar.***
***Qarabağ uğrunda gedən savaşda,***
***Adını tarixə yazdın, Xudayar.***

***Şəhidlik köynəyi geydin əyinə,***
***Düşməni almadın heç vaxt eyninə,***
***Qartaltək uçduğun zirvəyə döndün.***

***Səsindən qələbəətri ələndi,***
***Zəfər sevincinə torpaq bələndi,***
***Vətəndə əbədi nəğməyə döndün.***

Bu yazıda Zaur Ustacın bir sıra şeirlərinin adını çəkə bilərik ki, bu şeirlər onun fərdi üslubu barədə

müəyyən təsəvvür yaradır. Fikrimizcə, onun təbiətə, onun ayrı-ayrı fəsillərinə və gözəlliklərinə həsr etdiyi şeirlər daha uğurludur. Hiss olunur ki, Zaur Ustac təbiəti yaxşı duyur, təbiətlə insan akrasındakı vəhdəti də şeirlərinə gətirir. Onun Ali Bavş Komandan İlham Əliyevə, üçrəngli bayrağımıza həsr etdiyi şeirlər də poetik baxımdan sanballıdır. «45» şeirlər kitabında toplanan sevgi şeirləri barədə də xoş sözlər söyləməfk olar, belə ki, Zaur Ustac sevgi şeirlərində yaşanılan, duyulan hissləri qələmə alır. Bu şeirlərin birində onun sevgiyə, sevilən qadına, gözəl qadına münasibəti dolğun şəkildə öz ifadəsini tapır:

***Gözəl sima, heç gözəllik deyildir,***
***İncə bədən, heç incəlik deyildir,***
***Zərif tellər, heç zəriflik deyildir,***
***Gözəl insan, sən daxilən gözəılsən!***

«Bütöv Azərbaycan» qəzetində (6 may nömrəsində) Zaur Ustacın yeni şeirləri ilə tanış oldum. «Elə ad verin ki, bəxti yar olsun!!!» şeirində üzünü atalara tutub deyir ki, qız uşaqlarınız dünyaya gələındəonlara uğurlu adları əsirgəməyin, «Ya Humay çağırın, ya Sona deyin, Elə ad verin ki, bəxti yar olsun!». Rəşad Məcidə ünvanladığı «Ağ adam» şeirində Ağdam və Ağcabədi adlarının kökünə varır. Vaqif Mustafazadəyə həsr etdiyi və ingilis soneti

formasında yazdığı şeiri də Vaqifin sənətkar portretini yaratmaq mənasında uğurludur. Və biz Zaur Ustaca belə gözəl şeirlər yazmaqla yolunu davam etməyi arzulayırıq!

**Vaqif YUSİFLİ,**
*filologiya elmləri doktoru, professor*

## "ƏLİŞ VƏ ANNA" POEMASI HAQQINDA

Zaur Ustac "Günaydın" ("Ağçiçəyim"), "İstəməzdim şair olum hələ mən", "Gülzar", "Şehçiçəyim", "Məhdud həyatın məchul düşüncələri", "Mum kimi yumşalanda", "Bayatılar", "Balçiçəyim", "Bərzəxdə", "Gülünün şeirləri", "Sevin ki, seviləsiz", "Qəlbimin açıqcası", "Ustadnamə", "Nişangah", "Çəhrayı kitab", "Otuz ildir əldə qələm" şeir kitablarının müəllifi, "Qızıl qələm" mükafatı laueratıdır.

Zaman keçdikcə nəsillər bir-birini əvəz edir, dünyaya gələn hər yeni nəsil öz keçmişinə, tarixi yaddaşına nəzər salır. Zaur Ustac da keçmişə, tarixi yaddaşa nəzər salaraq "Əliş və Anna" poemasını görkəmli memar Şamaxılı Əliş bəy Sübhan oğlu

Kərəmli-Şirvaninin anadan olmasının 700 illiyi münasibətilə qələmə alıb (Bakı: Ustacaz.nəşr, 2018, 67 səh.). Öncə qeyd edək ki, poemada mənəvi-əxlaqi kamilliyə, insani davranışa çağırış və əxlaqi keyfiyyətlərin təbliği ilə bağlı mövqe müəyyənləşdirilib. “Əliş və Anna” poeması öz bədii-emosional və əxlaqi-estetik məziyyətləri ilə seçilir. Həmçinin, əsərin dili təbii, aydın və səlisdir.

Poemanı oxuyan zaman Zaur Ustacı dini və dünyəvi elmlərə dərindən bələd olan bir şair kimi tanıyırıq. Belə ki, poemada Dədə Qorqudun, Şah İsmayıl Xətainin, İmadəddin Nəsiminin, ümumilikdə, əcdadların adının çəkildiyini görürük.

Doqquz fəsildən ibarət olan əsərdə ciddi fəlsəfi mülahizələrə, sirlərlə dolu olan göy haqqında dərin təsvir və müqayisələrə rast gəlirik. Göstərilir ki, Günəşin donu ağ ipəkdən, gündüzdən ibarətdirsə, Ayın donu isə qaranlıq gecədəndir. Tanrı gecəni, gündüzü elə bir hüsnlə yaratmışdır ki, ona bənzər ikinci bir yaradılış olmayıb və olmayacaq da. Gövhəri sapa necə düzürlərsə, Ulu Tanrı göyə ulduzları eləcə düzmüş, gecənin qara saçlarına sığal çəkərək, yoxluq tozunu silmiş, varlığı yaratmışdır.

Günəşin saatı, ayın saatı,
Çox dəqiq döndərir tüm kainatı.
Elə qurulub ki, nizam məhvəri,
Gecəylə gündüzün səhv düşməz yeri.

Zərrədən ən böyük ulduza qədər,
Bir “ol”a bağlısa, onda nə kədər...
Həmd olsun Allaha, tanırıq onu,
Hər kəlmə başında anırıq onu (səh.4).

Şair oxucuların varlığın gizli sirləri ilə tanış olmasını istəyir. İstəyir ki, hər insan nə üçün yarandığını, niyə yaşadığını başa düşsün, yaşam mahiyyətini anlasın.

Adil Allahın mərəhəmətindən bəhs edən şair yazır ki, Allah nadir dürdanəsi hesab etdiyi insana bütün canlılardan üstün olaraq ağıl verib. Bütün başqa varlıqlardan fərqli olaraq bizə düşünmək və dünya bilməcələrini qavramaq, anlamaq istedadı verib. Hər bir pay sahibi də öz qismətindən razı qalır.

Şükür Yaradanın ədalətinə,
O Adil Allahın mərhəmətinə.
Elə bölüşdürüb, elə paylayıb,
Hamı qismətindən çox razı qalıb.
Ağlı elə bölüb, verib Yaradan,
Heç kim öz ağlından deyil bədgüman
(səh.5)

«Nübuvvət» (Peyğəmbərlik) adlandırılan bölmədə cəhalət qaranlığından dünyaya öz mərifət günəşi ilə işıq saçan və kainatın son əfəndisi Məhəmməd peyğəmbəri salamlayan şair peyğəmbəri dünya üzüyünün qaşı sayır. Bildiyimiz kimi, Ulu Tanrı

Məhəmməd peyğəmbərə gələn vəhyi (gizli səs və ya gizli danışığı) «Qurani-Kərim» adı ilə təxminən 23 il müddətində tamamlamışdır. Şair qeyri-adi zəka qüdrətinə malik peyğəmbəri haqlı şəkildə haqq sayır, eləcə də ona sonsuz sevgi və minnətdarlığını belə bildirir.

Salam olsun Sənə, ey “Haqqın səsi”,
Cəlal sahibinin seçkin bəndəsi.
Məhəmməd Mustafa (s.ə.v.), Haqqın nəbisi,
Bütün kainatın son əfəndisi.
“Qurani-Kərim”i bizə gətirən,
Haqqın kəlamını bizə yetirən,
Xatəmül-Ənbiya hökm edibdi Haqq,
Hüküm sahibinə məxsus hökm, haqq.
(səh.5)

«İmamət» (imamlıq edən, məzhəb işlərinə rəhbərlik edən) bölməsində isə Həzrəti Əlini nübüvvətdən (peyğəmbərdən) nur alan işıq kimi mədh edir. Şair belə təsvir edir ki, Həzrəti Əli (ə.) Peyğəmbər əfəndimizin eşsiz tərbiyəsi altında böyümüş və onun inanc və davranışlarından dərs almışdır. Məhəmməd Peyğəmbər (s.ə.s.) Adəm peyğəmbərin elmini, Nuh peyğəmbərin hikmətini və İbrahim peyğəmbərin həlimliyinin Həzrəti Əlidə (ə.) cəm olduğunu qeyd edərək buyurur: “Kim istəsə ki, Adəmə (s) – elminə görə, Nuha (s.) – hikmətinə görə,

İbrahimə (s.) – hilminə görə nəzər salsın, o şəxs Əliyyibni Əbu-Talibə baxsın". Şair elm və hikmət, şücaət və ülviyyət sahibi olan Həzrəti Əlini (ə.) Məhəmməd Peyğəmbərin sözlərinə əsaslanaraq (s.ə.s.) elmin qapısı adlandırır. Rəsuli-Əkrəmin elm haqqında dürüst düsturu belədir: "Mən elmin şəhəriyəm, Əli də o şəhərin qapısıdır. Şəhərə girmək istəyən o qapıdan girsin". Şair isə Həzrəti Əlinin (ə.) təlimini bəşəri mahiyyət daşıyan təlim adlandırıraq yazır:

Nübuvvət odundan nur alan işıq,
Atadan, babadan belə duymuşuq.
Rəsulun dizinin dibindən çıxan,
Çeşmədir, heç kimə gəlməyib ziyan.
Nümunə olubdur cümlə cahana,
Əlbəttə, aiddir arif olana.
Elmin şəhərinin təkdir qapısı,
Bu işin belədir təməl, yapısı...
Salam olsun Sənə ey Əhli-beyt,
Allahım bu yolu daha rəvan et (səh.6).

«Məad» (qayıdış yeri), «Namaz», «Oruc», «Zəkat», «Xüms», «Həcc», «Cihad», «Əmr-bə-məruf», «Nəhy-əz-münkər», «Təvəlli», «Təbərri», «Münacat», «Üsuli-iltimas» kimi bölmələrdə Zaur Ustac haqlı olaraq elm və əxlaqa bir-birini bağlayan motivlər kimi baxır. Şair yaxşılıq, düzlük, pislik, yalançılıq, ikiüzlülük və s. kimi mənfi və müsbət əxlaqi

keyfiyyətlər haqqında da geniş, qiymətli fikirlər söyləmiş və əxlaq tərbiyəsinin böyük bir sistemini yaratmışdır. Z.Ustac bu təsvirlərlə hər şeyi gözəl görmək istəyir və bunların da bərqərar olması üçün elmə, biliyə üstünlük verir. Hamını savadlı, bilikli, xalq üçün gözəllik yaradan görmək istəyir. Buna görə də müəllif maarifpərvər şair kimi gözəlliyin əmələ gəlməsini elmə, biliyə yiyələnməkdə və ağılda görür.

Həqiqi elmdən bir damla dadan,
Heç zaman dönməyib bu doğru yoldan
(səh.7).

Yaxud:

Çevrəndə dostların dinsə elmdən,
Hər dəm dürr tökülsə əgər dilindən,
Nə xoş halımıza, bəxtəvərik biz,
Allahın dostların dost seçərik biz...
(səh.11).

Dini-fəlsəfi baxışlarını real nəzərlərlə tərənnüm edən Z.Ustac qorxmazlıq, cəsurluq, iradə sahibi olmaq, səxavətlilik, düzgünlük, “Mərifət kəsb et”mək, “Özünü bilməz insanlardan uzaq ol”maq, “kamal sahibləri ilə dost olmaq”, dostluq, sədaqətlilik, etibarlılıq, yoldaşlıq, “zülmə boyun əyməmək” və s. kimi əxlaqi keyfiyyətlərdən geniş bəhs edir və tərbiyənin məqsədini “ağıllı, müdrik, kamil və əxlaqlı insan” yetişdirməkdə görür.

Cəlal sahibinə şərik qoşanlar,

Onun dostlarına pis yanaşanlar,
Əndazəni pozub, həddin aşanlar,
Yersiz  körüklənib, coşub-daşanlar,
Belə adamlardan uzaq dolan, gəz,
Hədsizdən kimsəyə bir xeyir gəlməz...
(səh.12)

Tərbiyə carçısı Zaur Ustac oxucusuna qızıla, vara arxalanmamağı, şahlar kimi dünya malına, cəvahirata uymamağı məsləhət görür və insana öz əməyi ilə şöhrətlənməyi tövsiyə edir. Tərbiyəçi-şair şöhrət üçün dostbazlıq edənləri tənqid edir, çörək üçün, aş üçün əldən getmələrini, dar gündə uzaq qaçdıqlarını, tez dost olub, tez doyduqlarını, varın olarsa dost olduqlarını, yeyib qurtardıqdan sonra atıb getdiklərini, dostun puluna göz tikdiklərini, yemək verəndə dostluq edənləri, verməyəndə isə düşmənçilik bəsləyənləri və s. birbəbir təhlil, şərh edərək üzünü yaradana tutur:

Səndən istəmirəm nə şöhrət, nə şan,
Səndən istəmirəm beş günlük ad-san.
Var-dövlət, saraylar deyil şakərim,
Öz əlim, ayağım olsun nökərim...
Niyətim bəllidir, istəyim dəqiq,
Ustac heç istəməz nə altun, əqiq...
Mustafa oğlunun istəyi təkdir,
Zaurun arzusu dəqiqdir, yekdir...

Elmin qapıların üzümüzə aç,
O güllü bağçandan bir az ətir saç.
Ruhumuz məst olsun, olsa da anlıq,
Dili tərk etməsin bir an şükranlıq...
(səh.14).

Z.Ustacın Dədə Qorquda üz tutaraq ondan mədəd ummasını xüsusi qeyd etmək istərdik. Şairin yaradıcılığında Dədə Qorqudun əxlaqi dəyərlərə yanaşması, xalqımızın milli xüsusiyyətlərini öyməsi, vətənin – ananın müqəddəsliyi, ailəyə və dosta sədaqət, namus və ismətin toxunulmazlığı, qopuza, saza yüksək ehtiram və s. öz əksini tapır. Görürük ki, şairin yaradıcılığında bəşəri dəyərlər, əxlaqi keyfiyyətlər hər şeydən öndə gəlir.

Sinəmdə Qopuzum yoxdu, neyləyim,
Simlərə toxunub mədət umardım...
Dədəm Qorqud ruhu, kömək ol mənə,
Qopuzun namına, sazın xətrinə...
Ərlərə ad verib, san saylamısan,
Boylara yol verib, boy boylamısan...
Kamanın xətrinə, oxun xətrinə,
Əslində var olan yoxun xətrinə.
(səh.15)

Şair Zaur Ustac Xətaini görkəmli şəxsiyyətlərin mütərəqqi ənənələrinin nəticəsi kimi qiymətləndirirsə, İmadəddin Nəsimini də xalqının dini etiqadlarını yaşadan ulu insan kimi tərənnüm edir. Sanki

Şamaxının hər döngəsində, tinində Nəsiminin ayaq izləri və ruhu yaşamaqdadır. Şair, həmçinin, Şamaxını şairlər eli, təbiblər yurdu kimi tərənnüm edir. Poetik dillə deyir ki, Əfzələddin Xaqani, İmadəddin Nəsimi, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Məhəmməd Hadi kimi görkəmli şair və maarifçilər təkcə Azərbaycanın deyil, bütün Yaxın və uzaq Şərqin mütəfəkkirləri olmuşlar.

Şairlər şəhəri, təbiblər eli,
Yurda çıraq tutan ülama əli...
Nə qədər alimi, sənətkarı var,
Şamaxı həmişə olub ziyadar...
Əfzələddin Xaqanisi bir düha,
İmadəddin Nəsimidən yox daha,
Seyid Əzim Şirvanidir tək ancaq,
Kim nə bilir, bir də Sabir olacaq?
Abbas Səhət, ya da Hadi bu yerdə,
Könüllərin fatehidir zirvədə...

(səh.16)

Şair bəhs edilən subyektin (Əlişin) mənəvi təmizlik, əxlaqi saflıq kimi keyfiyyətlərini ön planda göstərir, digər müsbət cəhətləri də bu prizmadan oxucusuna göstərməyə çalışır. Poemanın I fəslində oxuyuruq ki, bahar bayramından bir ay keçmişdi ki, Sübhan kişinin ocağına böyük şadlıq üz verir. Oğul atası olan Sübhan kişinin sevincinin həddi-hüdudu yoxdur. Körpəni görənlərin hamısı bir ağızdan “Əli (ə.)

köməyi olsun” deyərək öz xeyir-dualarını verir. Atası da uşağa Əliş adını verir. Şair burada həm də Sübhan kişini mahir tərbiyəçi və səxavətli biri kimi təqdim edir. Göstərilir ki, Əliş sanki anbaan, saatbasaat, günbəgün böyüyür, “pərvaz” edir. Əliş məntiqi, hesabı və digər fənləri mükəmməl öyrənsə də, elmini, biliyini daha da təkmilləşdirmək istəyir. Bu minvalla Təbrizə, İraqa, Dəməşqə, Bağdada gedir. Çünki Əliş memar olmaq istəyir.

Onu düşündürən bircə amaldı,
Qurub yaratmaqdı əzmi, amalı.
Məqsədi bir idi - memar olmalı.
Qəlbində niyyəti, dilində Allah,
Amalı yolunda etdi Bismillah.

(səh.18)

Poemanın bir gözəlliyi də ondadır ki, müəllif təsvir etdiyi hadisələrə, söylədiyi fikirlərə öz daxili hisslərini hopdurmağı bacarır. Göstərir ki, Əliş artıq 44 yaşına çatıb. İstedadının şöhrəti Moskva Knyazına qədər gedib çatmışdır. Knyaz ilk olaraq daşdan imarət qurdurmaq üçün elçilərini Şirvanşah Şeyx İbrahimin üstünə göndərib ondan izin istəyir. Şirvanşah Şeyx İbrahimin tərəddüd içində qaldığını görən Kərəmli Şeyx İbrahim Əliş təklifi dəyərləndirməyi xahiş edir və sonda Əlişin getməsinə razılıq verilir. İmarətin (“Kərəmli Qalası”nın və ya Kremlin) tikilərək başa çatması müqaviləsini dörd ilə

imzalasalar da, üç il üzərində tamamlanmasına çalışan Əlişin qalacağı mənzil Annanın evi olacaqdı. Əlişin zil qara saçları, şəvə bığ-saqqalı, boy-buxunu, xoşhal, gülərüz sifəti Annanı sanki məst edir.

Zil qara saçları, şəvə bığ-saqqal,
Boy-buxun yerində, sifəti xoşhal.
Zirəklik, çeviklik işdə məharət,
Annanı büsbütün eyləmişdi məst...
Aşkarda, gizlində olmuşdu kölgə,
Zirəklik, çeviklik işdə məharət.

(səh.25)

Artıq memar Əliş imarəti tamamlamışdır. Ancaq Knyazın içinə şübhələr toxumu səpilmişdir. Ona görə ki, Əliş belə bir bənzəri olmayan imarətdən bir başqasını da tikə bilər. Son qərara gəlir ki, Əlişin başı bədənindən ayrılmalıdır.

Şübhə toxumları düşdü qəlbinə,
Qorxdu tay tikilə onun "Kreml"inə...
Düşünüb, daşınıb verdi qərarı,
Dedi: – "Sabah yola salaq memarı".
Tapşırdı bir gözəl məclis qurulsun,
Sonunda memarın boynu vurulsun...

(səh.26)

Z.Ustac Memar Əlişin faciə dolu ölümünü və Annanın dəlilik dərəcəsinə çatdığını və sonda ölümünü çox mahir qələm fırçasıyla gözəl təsvir edir. Faciə dolu mənzərini belə mənalandırır:

Anna saçın yolub verdi yellərə,
Getdi ibadətə qürbət ellərə...
Məzarı başına gələrək hərdən,
Hədiyyə gətirdi güldən, çiçəkdən...
Uzun zaman oldu çəkdilər həsrət,
Bir-birin duymayıb etdilər söhbət...
Vüsal da var imiş demə qismətdə,
Bir gün anlaşdılar qəfil söhbətdə...
Hər dəfə Annaya yazıq deyənlər,
Cansız bədənini yolda gördülər...

(səh.29)

Zaur Ustacın yaradıcılıq uğurlarından biri də Əliş və Annanı ölümsüzləşdirməsidir. Yəni başqa bir aləmin varlığına çevirməsidir. Əlişin başına gələn faciələr və Annanın uzun müddət çəkən iztirabları, nəhayət, sona çatır, onların ruhları azad-sərbəst olduqdan sonra qovuşurlar. Bu axirət səadətini – həyatın davam etməsini şair özünəməxsus bir poetik dillə oxucusuna çatdırır. Qəmli hekayəni nikbin və ya optimist sonluqla bitirir. Qəhrəmanlar sadəcə sözün əsl mənasında dünyalarını dəyişirlər, həyat isə davam edir:

İndi həmin yerdə hər il qumrular,
İyunda, iyulda nəğmə oxurlar...

(səh.29)

Kövrək bir əhvalat haqqında Zaur Ustacın hekayəsi oxucuya dərin təsir bağışlayır. Bu real

hadisədə həyat qanununa çevrilən məhəbbətin, eşqin aydın təcəssümü verilmişdir. Yaxşı əməl, xeyirxahlıq, mənəvi saflıq, hikmət dolu sözlər və s. yüksək sosial-əxlaqi məzmunlu məsələlərin də poemaya daxil edilməsi məqsədəmüvafiqdir.

Z.Ustac "Əliş və Anna" adlı tarixi poemasında qeyd etdiyimiz kimi, ümumiləşdirmələri ruh yüksəkliyilə aparmışdır. Çünki keçmişə baxaraq tariximizi öyrənmək hər bir vətəndaşın borcudur. Sürücü irəliyə hərəkət etmək üçün avtomobilin yan güzgüsüdən arxaya baxmalı olduğu kimi, millət də inkişaf etmək, bəşər mədəniyyətinə töhfələr vermək, imzasını imzalar içində görmək üçün öz keçmişini, soykökünü öyrənmək, tarixini bilmək məcburiyyətindədir. Bunsuz təşəkkül, inkişaf və tərəqqi yoxdur. Zaur Ustac da bu tarixi əsəri yazmaqla öz keçmişinə, soykökünə sadiqliyini bir daha sübut etmişdir.

Ümumiyyətlə, Zaur Ustacın elm, ürfan, təlim, əql, idrak, zəka, kamillik, gözəlliyi qiymətləndirməyi bacarmaq kimi fikirləri də vardır ki, bunların ciddi elmi-tədqiqata ehtiyacı var.

**Kamal CAMALOV,**
*pedaqogika elmlər doktoru, professor*

## SÖZ BAĞINDA ÖZ ÇİÇƏYİ OLAN ŞAİR

*Adətən, söz adamlarının -- yazıçıların, şairlərin əvvəlcə əsərləri ilə, sonra isə özləri ilə tanış olurlar.*

*Ancaq bizdə belə olmadı. Biz əvvəlcə bu sahəyə heç bir aidiyyəti olmayan səbəbdən tanış olduq, bir-birimizi tanımağa başladıq.*

Öncə onu qeyd edim ki, elə ilk söhbətlərdə adi danışıq zamanı da qafiyəli sözlərdən istifadə edən Zaur (o zaman onun «Ustac» təxəllüsü olduğundan xəbərsiz idim) çox gözəl həmsöhbət, istənilən mövzuda mükalimə aparmaq üçün tam münasib bir müsahibdir. Bizim ilk tanışlığımız 2009-cu ilin payızına təsadüf edir. Çox keçmədən mənim qafiyə ilə danışan bu sirli müsahibim “Günaydın” adlı şeirlər kitabını mənə hədiyyə etdi. Bununla da Zaur Ustacla bir söz adamı kimi tanışlığım başladı. Qeyd edim ki, mən də ona Əhməd bəy Ağaoğlu haqqında olan kitabımı hədiyyə etdim. Əhməd bəy Ağaoğlu haqqında da fikirlərimizin üst-üstə düşməsi bizi daha da yaxınlaşdırmışdı. “Günaydın”la başlayan şeir çələngləri bir-birini əvəz etməyə başladı.

Bir dəfə o mənə “Bayatılar” adlı yeni kitabını hədiyyə etdi. Kitab Azərbaycan dilində, paralel latın və ərəb qrafikasında yazılmışdı. Bu kitabla Zaurun daha bir qabiliyyəti - ərəb əlifbasını bilməsi və əski

əlifba ilə yazmaq bacarığı mənə məlum oldu. "Bayatılar" kitabı cildindən tutmuş, içərisindəkilərə qədər hamısı mükəmməl idi və bir-birini tamamlayırdı. Ümumiyyətlə, Zaur Ustac mənim üçün maraqlı şəxsə çevrilmişdi və hər görüşdə ondan nəsə bir yenilik gözləyirdim. Bu günə qədər də bizim əlaqələr davam edir. Demək olar ki, onun işıq üzü görmüş bütün kitabları məndə var. Onunla həm canlı ünsiyyətdə olmaq, həm də şeirlərini oxumaq mənim üçün maraqlıdır. Onun yazdıqlarını iki istiqamətdə ümumi şəkildə dəyərləndirmək istəyirəm. Birinci, şeir həvəskarı, oxucu kimi. İkinci isə, bir dilçi-filoloq kimi. Şeir həvəskarı və bir oxucu kimi yanaşdıqda, onun yazdıqları həqiqətən oxucunu ovsunlayır. Zaurun xüsusi ibarələrlə, özünəməxsus ifadə vasitələri ilə zəngin şeirlərini oxuduqca, sanki müəllifin özü ilə söhbət edirsən. Onun yazdıqları o qədər səmimi və xalq dilinə yaxındır ki, valeh olmamaq mümkün deyil. Bir mütəxəssis kimi yanaşdıqda isə, görürsən ki, onun şeirləri nə qədər axıcı, yüngül və sadə görünsə də, əslində bir o qədər mürəkkəb, diqqəti cəlb edən, bəzən hətta anlaşılmaz təsiri bağışlayır. Zaur Ustac şeirlərində indi artıq o qədər də yayğın şəkildə işlədilməyən köhnə və eyni zamanda Azərbaycanın olduqca müxtəlif bölgələrinə məxsus şivə sözlərindən istifadə edir. Bəzən bu hal şeirlərin oxunuş və

tələffüzünə gözəllik qatsa da, anlaşılmasında çətinliklər yarada bilər.

Məncə, bir yaradıcı şəxs kimi onun ən əsas məziyyəti yenilikçi olması, ölçü və çərçivələrə sığmamasıdır. Zaur Ustac ənənəvi şeir formalarından istifadə etdikdə belə, onun dəst-xətti aydın sezilir. Bütün bunlardan əlavə, artıq ədəbi mühitin nümayəndələrinə yaxşı məlum olan və mətbuatda haqqında geniş müzakirələr gedən "Ustacı" adlandırdığı xüsusi şeir formasında şeirlər yazır. Yuxarıda qeyd etdiyim kimi, onun müəllifi olduğu kitabların çoxu mənim kitabxanamda var. Şeirlərinin çoxu ilə tanışam. Bu yazıda ancaq bir şeirdən söhbət açaraq, onun əsasında Zaurun daxili dünyasına ayna tutmağa və onun təfəkkür tərzinə, sözdən istifadə bacarığına, zəngin biliyinə, geniş dünyagörüşünə bələd olmağa çalışacağam.

Zaur Ustac "Şehçiçəyim" adlandırdığı bu şeirdə təbiətdə mövcud olan Şehçiçəyi adlı çiçəyin təbii - bioloji xüsusiyyətlərindən böyük məharət və ustalıqla istifadə etməklə bu günə qədər adət etdiyimiz formalardan kəskin şəkildə fərqlənən bədii nəzm nümunəsi yaratmışdır:

**ŞEHÇİÇƏYİM**

*Tacısan dünyamda tüm çiçəklərin,*
*Köksündən bal süzən, tər Şehçiçəyim...*

*Sehrinə düşmüşəm nur ləçəklərin,*
*Əqli başdan alan, zər Şehçiçəyim...*

*Cəzbində qalmışam, tamam çar-naçar,*
*Sağımda, solumda çox çiçək açar,*
*Pərvanəyə dönüb dövrəmdə uçar,*
*Sərrafam, seçmişəm, dürr Şehçiçəyim...*

*Bir kərə, bir anlıq olsa da, vüsal,*
*Ruhuma rahatlıq verməyir xəyal,*
*Sonu ölümsə də, gəl, qoynuna al,*
*Həsrətdə yaşamaq, zor Şehçiçəyim.*

Birinci bəndin ikinci misrasına nəzər salaq: "Köksündən bal süzən, tər Şehçiçəyim...". Burada "Köksündən bal süzən" ifadəsində şairin sətiraltı mənada nə demək istəməsindən asılı olmayaraq bu hal təbiətdə mövcud olan Şahçiçəyi adlı çiçəyin öz şikarını cəlb etmək üçün dadlı və ətirli nektar ifraz etməsi məqamı ilə tam uyğunluq təşkil edir.

*"Sehrinə düşmüşəm nur ləçəklərin,*
*Əqli başdan alan, zər Şehçiçəyim..."*

Bu halda da eyni ilə yuxarıdakı kimi çiçəyin təbii - bioloji xüsusiyyəti öz əksini bədii dildə tapıb. Şehçiçəyi əlvan rəngli, ətirli ləçəkləri ilə həşaratları cəlb edərək tələyə salır.

*“Bir kərə, bir anlıq olsa da, vüsal,*
*Ruhuma rahatlıq verməyir xəyal,*
*Sonu ölümsə də, gəl, qoynuna al,*
*Həsrətdə yaşamaq, zor Şehçiçəyim...”*

Geniş izahatdan sonra sonu əvvəlcədən məlum olsa da, Şehçiçəyinin qurbanları ləçəklər arasında sıxılaraq məhv olduğu kimi, *“Sonu ölümsə də, gəl, qoynuna al”,* - deyən şair çiçəyin təbii – bioloji xüsusiyyətindən bu məqamda da məharətlə istifadə etmişdir. Şeirdən belə ayrı-ayrı məqamları nəzərinizə çatdırsam da, əslində elə vahid və bütöv şəkildə yazılıb ki, onu belə hissələrə ayırıb izah etməyin tərəfdarı deyiləm. Bu üç bəndlik şeir tam olaraq çox gözəl bir bədii nümunə və söz dünyasında, ədəbiyyat aləmində yenilik kimi qəbul olunmalıdır. Bu günə qədər müxtəlif statuslu söz adamların ədəbiyyata gətirdiyi çoxlu çiçəklər; ağçiçək, bənövşə, nərgiz, yasəmən, lalə və s. olduğu halda Şehçiçəyi çiçəyini, kəlməsini ədəbiyyata ilk dəfə Zaur Ustac gətirib. Həm də bu elə-belə sadəcə söz, kəlmə kimi deyil, çiçəyin bütün təbii- bioloji xüsusiyyətləri nəzərə alınmaqla baş verib. Zaur Ustacın Şehçiçəyi çəmənlikdən dərilərək söz süfrəsini bəzəmək üçün gətirilən çiçəklərə bənzəmir. Əksinə, onun Şehçiçəyi ədəbiyyat bağçasında bitmiş, söz dünyasın dərinliklərinə rişələr

atmışdır. Bu səbəbdən o, solmayan bir çiçəkdir. Şairin şeirin əvvəlində özünün qeyd etdiyi kimi:
***“Tacısan dünyamda tüm çiçəklərin.”***

Və ya ikinci bənddə:
“Sağımda, solumda çox çiçək açar,
Pərvanəyə dönüb, dövrəmdə uçar,
Sərrafam, seçmişəm, dürr Şehçiçəyim...”
Zaur Ustac özünəməxsus lirizmi və ədəbiyyat bağçasında solmayan bir çiçəyi olan şairdir. Onun müəllifi olduğu “Şehçiçəyim” şeiri təkdir və düşündürücüdür. O, bu şeiri yazmaqla ədəbiyyat aləminə yeni bir çiçək qazandırmış və söz dünyasını təkrarsız bir nümunə ilə bəzəmişdir. Bütün bunlardan sonra böyük əminliklə demək olar ki, Zaur Ustac söz bağında, ədəbiyyat bağçasında öz çiçəyi olan şairdir. Və o çiçək... .

**Ülviyyə HÜSEYNOVA**,
*filologiya üzrə fəlsəfə doktoru*

## "BB" HEKAYƏSİ – BÖYÜK BAŞARI

"BB" – Zaur Ustacın ən çox səs salan hekayəsidir, bəlkə də ədəbiyyat aləmində böyük rezanans yaradan on hekayədən biridir. Kriminal aləmin qloballaşan dünyada adi həyat tərzini qat-qat üstələdiyindən bu başlıq ilk görünüşdə "Bas bayıra" kimi anlaşıla bilər. Yaxud, hələ də bir çox hallarda milli mental dəyərlərimizi qoruyub saxlamağa üstünlük verdiyimiz Azərbaycanımızda onu bizə daha yaxın başqa adlarla da əvəzləyə bilərik. Məsələn: "Böyük Bakı", "Bizim Bakı", "Babamın babası", "Balamın balası" və bu stildə adları daha da uzada bilərik. Lakin bizdən fərqli olaraq Zaur Ustac bu adı yenə də qloballaşan dünyanın başqa – bəlkə də daha vacib bir sahəsinə – bazar iqtisadiyyatının şah damarı sayılan ticarət sahəsinə yönəldə bilmiş və son otuz ildə baş verənlərdən bir qisminin mənzərəsini təsvir etməklə maraqlı süjet xətti üzərində gözəl nəsr nümunəsi yaratmışdır.

Hekayə nəsrin kiçik növlərindən biridir. Ya birinci şəxsin dili ilə söylənilir, ya da üçüncü şəxsin təsəvvüründə canlandırılır. Oxucu ilə arada daha tez səmimiyyət yaransın deyə bir çox qələm sahibləri avtobioqrafiq təsir bağışlayacaq tərzdə əhvalatı birinci şəxsin dili ilə nəql etməyə üstünlük verirlər. Zaur Ustac bəzi sələflərinin yolu ilə gedərək, hətta Qərb

ədəbiyyat nümunələrindən bəhrələnərək adıçəkilən hekayədə məhz, bu üsulu seçmişdir. Nəsrin digər sahələrində olduğu kimi hekayədə də zaman və məkan anlayışı əsasən mücərrəd olur, lakin konkret göstəricilər də qadağan deyildir.

“20.12.2021-ci il, Bakı vaxtı ilə səhər saat 9.00, mən artıq işdəyəm” – hekayə bu cümlə ilə başlayır. Texnikanın inkişafı nəticəsində müasir insan dünyanın istənilən məkanında baş verən hadisə barədə tez bir zamanda xəbər tuta bilir. İndi həyatda elə hadisələr baş verir ki, onlar bədii əsərlərdə təsvir olunanlardan daha maraqlı təsir bağışlayır. Oxucunun diqqətini ilk cümlədə cəlb etmək lazımdır ki, sonra nəql edəcəyin istənilən hadisəni ona maraqla dinlətdirə biləsən. Zaur Ustac ilk cümləsi ilə oxucunun diqqətini özünə cəmləşdirməyi bacarmışdır.

“Günün mətbu nəşrlərini vərəqləyirdim ki, telefonlardan biri zəng çaldı”. Bununla da o, həm öz iş yerindəki vəziyyəti təsvir edir, həm də oxucunu ona danışacağı hansısa qəribə əhvalatı dinləməyə hazırlayır.

Beləliklə, ofisin telefonlarından biri zəng çalır. Dəstəyi xadimə qaldıraraq cavablandırır və əsərin əsas personajına ötürür. “Karvansara” dərgisinin baş redaktorunun dördüncü müavininin baş köməkçisinin birinci köməkçisi Əli Mülayim özünü təqdim edir və zəng vuran xanımın məqsədini öyrənməyə çalışır.

Təqdimatın qeyri-adi uzun şəkildə görünməsi heç də oxucunu dolaşığa salmaq məqsədi daşımır, sadəcə, hürriyyətçilik dövründə belə kolantay vəzifə bölgülərini nəzərə çarpdırmaqla Zaur Ustac planlı dövrdən müstəqillik zamanına keçidin bəzi əndazədən çıxma hallarını təsvir etmiş olur. Həm də oxucuya şərait yaradır ki, qırışığı açılsın, özünü cəmləşdirsin, fikrini hekayədə nəql olunacaq əhvalata yönəltsin, çünki indi onun üçün gözlənilməz bir hadisədən söhbət açılacaq.
“BB” şirkətinin nümayəndəsi İlahə xanım telefonda Əli Mülayimin nəzərinə çatdırır ki, qarşıdan yubileylər gəlir, özü də ikisi birdən; həm şirkətin yaranmasının ildönümüdür, həm də şirkətin rəhbəri Bəy Bala müəllimin ad günü olacaq. Bu münasibətlə bos müsahibə vermək istəyir, ona görə ofisə dəvət olunur. Dəvəti məmnuniyyətlə qəbul edir, çünki onların işi elə müsahibələr hazırlamaq, maraqlı əhvalatları yazmaqdır.
Beləliklə, “BB” şirkəti ofisinin yerləşdiyi ünvanını dəqiqləşdirən Əli Mülayim dərhal jurnalistin şans alətləri hesab olunan qələm, bloknot, diktafon və fotoaparatı çantasına qoyaraq, necə deyərlər, tədarükünü görüb üz tutur deyilən ünvana.
Zaur Ustac müsahibə götürüləcək adamın ofisini – işgüzar şəraitini belə təsvir edir: “T şəkilli masanın üzərində barmaq basmağa boş yer yox idi. Disklər,

kitablar, bir neçə işlək vəziyyətdə olan noutbuk və sonsuz sayda kağız-kuğuz… Bu mənzərəni insan öz gözü ilə görməsə, sözlə ifadə etmək çox çətindir”, – deyir. Bundan sonra o, salamlaşma və təqdimolunma səhnəsini təsvir edir:
“-Əli Mülayim.
-Çox gözəl, Əli müəllim. Vallah, indi elə zəmanədə yaşayırıq ki, mülayim olmayıb neyləyəcəksən ki? Lap yaxşısını elə siz eləmisiniz. Mülayim olun!”
Bu, kiçikdən kiçik dialoq-tanışlıq vasitəsilə Zaur Ustac oxucuya, bəlkə də cəmiyyətə böyük mətləblərin sirrini açır. Sanki ölkəmizdə mövcud olan jurnalist-məmur faktoru bu iki-üç kəlmədə öz əksini tapıb. Harın, rüşvətxor, təpədən dırnağadək korrupsiyaya qurşanıb qudurmuş bəzi məmurların qarşısında heç bir sosial müdafiəsi olmayan, hüquqları yalnız kağız üzərində qorunan jurnalistin mövcudluğunu qorumaq, elementar yaşayış tələbatını ödəmək üçün mülayim olmaqdan başqa çıxış yolu qalırmı? Qalırsa da, bu yol mübarizlik yolu deyil, sonda onu həbsə aparacaq əzilmək, sındırılmaq, şərlənmək, ölkədən didərgin salınmaq yoludur. Bu yol itki yoludu, gedər-gəlməz yoldu, çox adam gedib, hələ geri qayıdan olmayıb. Bir nəfər yarı yoldan – Türkiyədən qayıtmışdı, o da dərhal həbsə atıldı.
Burda elə görünə bilər ki, əsərin zirvəsinə yaxınlaşma prosesi gedir. Ya elə bir hadisə baş verəcək ki,

kulminasiya hesab olunacaq, ya da Bəy Bala müəllimlə Əli Mülayim hansısa sözə görə anlaşmayacaq, bununla da müsahibə alınmayacaq. Əslində, əsəri maraqlı edən elə bu cür süjetlərdir, dirənişdir, personajlar arasında yaşanan dramatiklikdir. Zaur Ustac burda belə görüntü yaratsa da başqa yol seçib. Axı onun personajı hansısa Vulkan, İldırım, Şimşək ləqəbli birisi deyil, sadəcə Mülayimdir. Bəy Bala müəllim onu anlayacaq birisini tapdığına görə uşaq kimi sevinir və dərhal niyyətini açıqlayır. Özünün 55, şirkətin yaranmasının 20 illiyini müsahibinin diqqətinə çatdırır. Amma özünü elə göstərir ki, onun buna ehtiyacı yoxdur, elə-belə, sözgəlişi “mətbuatda, televiziyada bu barədə məlumat getsin”, deyir.
Əsərin bu yerində Bəy Bala müəllim gözlənilmədən bir eyham vurur:
“Bir də xahiş edirəm o maskanı çıxardasınız. Burada kim var ki? İnanın səmimiyyətimə, bunlar hamısı boş şeydir. Can verən də, alan da, bax, o kişidir!”
Burda Zaur Ustac üstüörtülü olsa da diqqəti iki məqama yönəldib. Birincisi, dünyanı ağuşuna götürmüş Koronavirus pandemiyası nisbətən səngisə də, qapalı məkanlarda maskasız gəzmək qadağası tam olaraq aradan qaldırılmamışdı. Bəy Bala müəllim öz iş otağında maskasız əyləşsə də qonağının maskada oturmağı onu narahat edirdi, tıncıxdırırdı.

İkinci məsələ isə bunun məcazi mənasından gedir. Bir də görürsən məmur hansısa jurnalistin səmimiyyətinə inanır, ağzın qoyur Allah yolunda, nə istəyir, danışır. Danışığı xəlvətcə lentə alan jurnalist cənabları bir müddət sonra bunu üzə çıxardaraq yayır və aləm bir-birinə qarışır. Ya da əksinə olur, məmur jurnalisti dilə tutub danışdırır, onun səsini yazır, rəhbərlərinə qarşı istifadə edir. Maskalanmış insanlardan cəmiyyətdə hər nə desən gözləmək olar. Zaur Ustac məharətlə bu eyhamı vurub tez də üstündən adlayıb keçir. Mirzə Ələkbər Sabir demişkən: “Səs salma, yatanlar ayılar, qoy hələ yatsın!”
“Dedi (Söhbət Bəy Bala müəllimdən gedir – Ə.A) və əlini tavandan sallanan bahalı çilçırağa tərəf elə şəstlə qaldırdı ki, məndə də qeyri-iradi olaraq gözəgörünməz qüvvənin bu çilçırağın içində gizləndiyinə əminlik hissi yarandı”.
Beləliklə, Əli Mülayim Bəy Bala müəllimdən müsahibə götürür. Bəy Bala müəllim uşaqlığından başlayaraq həyatında baş verən bütün hadisələri xırdalığınadək incələyib danışır. Böyük ölkənin necə kiçik dövlətlərə parçalandığından, oxuya-oxuya alverə qurşandığından, xırda ticarətini inkişaf etdirərək ailə biznesi yaratdığından tutmuş ailədaxili baş verən kiçik detallaradək hər nə baş veribsə, hamısını açıqlayır. Burda yazıçı məharəti dərhal özünü büruzə verir.

Zaur Ustac Bəy Bala müəllimin dili ilə Sovetlər ölkəsinin dağılması ilə müstəqillik əldə etmiş dövlətimizin hansı daxili fəsadlarla üzləşdiyindən, o vaxtkı insan təfəkkürünün bir andaca əriyib getməsindən və yeni yaranmış münbit bazar-ticarət əlaqələrinin sürətlə inkişafından və başqa mətləblərdən söhbət açır. Ən nəhayət, hər şeyi yerli-yataqlı danışıb rahatlıq tapandan sonra Bəy Bala müəllim soruşur:

“-İndi bu yazının adını nə qoyacaqsınız?

Fikrimdən “Bit Biznesi” keçsə də “Böyük Biznes” dedim.

-Bəlkə bu yazının adını elə “Böyük Bədbəxt” qoyasınız. Ya da heç nə lazım deyil. Yubiley-mubiley olmayacaq”.

Dahilərdən hansısa deyib ki, “bütün xoşbəxtliklər eynidir, bədbəxtliklər isə müxtəlif cür olur”. Zaur Ustacın baş qəhrəmanı da özünü “Böyük Bədbəxt” hesab edir. Baxmayaraq ki, evli-eşikli, qohumlu-əqrəbalı birisidir. Biznesi də özünün dediyi kimi Bakıdan vurub Dubaydan çıxan, Dubaydan vurub İstanbuldan fırlanaraq yenidən Bakıya gələn böyük şəhərlərdə adam sıxlığından istifadə edərək sürətlə artıb çoxalan nadir biznes sahəsidir. Bununla belə o, özünü böyük bədbəxt hesab edir. Deməli, xoşbəxlik var-dövlətdə, ailə-uşaqda, qohumlar və dostlar arasında ayın-şayın yaşamaqda deyil, səni anlayacaq

birinin yanında olmaqdır. Bəy Bala müəllim məhz o gün – müsahibə verdiyi gün onu anlayacaq birini tapdığına sevinir və özünü xoşbəxt sanır.
"-Lap əla oldu. Xeyli yüngülləşdim. Başqa heç nə lazım deyil", – deyir Bəy Bala müəllim. Bu qədər qohum-əqrəba, dost-tanış, biznesində istifadə etdiyi adamlar arasında onu anlayacaq bircə nəfər də olsun tapıb ürəyini boşalda bilməyən "Böyük Biznes" sahibi Bəy Bala müəllim…
Zaur Ustacın "BB" hekayəsini uğurlu nəsr əsərlərindən hesab etmək olar. Ən azından otuz illik bir qərinənin gözəçarpmayacaq panoraması canlandırılır bu hekayədə… Bilmədiyimiz, bəlkə də varlığına fikir vermədən adi hal kimi baxıb, yanından ötüb keçdiyimiz ciddi sahələr işıqlandırılıb bu əsərdə…
Yazıçının missiyası qələmə aldığı əhvalatı təkcə bədii mətnə çevirib cəmiyyətə təqdim etməkdən ibarət deyil, həm də sətiraltı olsa belə cəmiyyətə ideya verib hekayəsini hərtərəfli mənalandırmağı bacarmaqdır. Düşünürəm ki, Zaur Ustac burda qarşıya qoyulmuş tapşırıqların hər ikisinin öhdəsindən məharətlə gəlib. "BB" hekayəsində təkcə şirkət qurub bizneslə məşğul olmaq deyil, çalışqan insan üçün götürüb inkişaf etdirəsi müxtəlif istiqamət və yollar mövcuddur. Ən əsası isə dövrün bir çox böyük sahələri bu kiçik

həcmli əsərdə öz mənzərəsini əks etdirib.

**Əli bəy AZƏRİ,**
*yazıçı, publisist*

## "SEVGİ DOLU ŞEİRLƏR"İN İŞIĞINDA

Hərə dünyaya bir missiya ilə gəlir. Zaur Ustac da şairlik missiyasını yerinə yetirmək üçün qələmdən yapışmalı olub və ilk şeirlərindən anadan şair doğulduğunu təsdiqləyib.

Zaur poeziyasının işığında görürsən ki, qələm ona, o da qələmə yaraşır. Qələmlə ülfət bağlayan şair ürəyindən gəlməyən bir misranı da yazıya almayıb. Bu da onu göstərir ki, şair ülfət bağladığı qələminə xəyanət etməyib, etməyir və etməyəcək də…

Şairin "Sevgi dolu şeirlər" kitabını (2024) böyük maraqla, həvəslə, həm də həyəcanla oxudum. Ürəyim ağappaq işıq selinə büründü, duyğularım təzələndi və ruhumu qidalandıran şeirlər Zaurun söz dünyasının təmizliyindən, saflığından, halallığından xəbər verməklə yanaşı, həm də şairin vətənə, torpağa, yurd yerinə… böyük sevgisinin göstəricisidir.

Zaurun təkcə "Ağ çiçəyim" şeirilə onun vətən sevgisini, yurdun hər gülünü, çiçəyini necə

əzizlədiyini, onlara müqəddəs bir varlıq kimi baxdığını hiss edirsən. Hiss edirsən ki, ***"Xoş gördük, günaydın, ay Ağ çiçəyim!"*** – deyən şairin ürəyindən süzülən səmimi, kövrək misralar ruhumuzu sığallayır və o, gözəl bir təbiət mənzərəsini Ağ çiçəyin timsalında rəssam kimi çəkərək gözlərimiz önündə canlandırır. Sözlə Ağ çiçəyin şəklini çəkən, çiçəyi insaniləşdirib onunla söhbət edən şair inandırıcı, təsiredici misraları inci kimi ard-arda düzərək həm gözümüzü, həm də könlümüzü oxşayır.

***Dümağsan, qar sənin yanında qara,***
***Tanrım rüsxət verib, baxmayıb qara.***
***Bu qarlı qış hara, tər çiçək hara?***
***Xoş gördük, günaydın, ay Ağ çiçəyim!***

Zaurun hər şeiri onun həm yaradıcılığını, həm məramını, məsləkini səciyyələndirir, həm də hiss olunur ki, onun hər bir poetik misrası qətiyyən pafos xatirinə yazılmayıb, hər misra onun iç dünyasından qopub gələn ən kövrək, ən həzin, ən səmimi hisslərdir, duyğulardır. Duyğularını, hisslərini, fikir və düşüncələrini şeirlərinə hopduran, hər "sözə ehya" verən Zaur Ustacın "Sevgi dolu şeirlər" kitabını çəkinmədən, cəsarətlə ədəbi hadisə saya bilərəm. Bu fikrimdə haqlıyam. Çünki ədəbiyyatın ədəbi tarixinə yazıla biləcək bu misraları onun kimi yazan olarmı? "Yelləncək" şeirində oxuyuruq:

***Çiçəklər ruhumun yelləncəyidir,***
***Ruhumu asmışam nar çiçəyindən.***
***Arzular dünyamın gələcəyidir,***
***Arzumu tutmuşam bar çiçəyindən.***

Bu poetik misraları oxuyandan sonra düşündüm ki, Zaurun özü də işıqdır, sözü də. Onun sözünün işığında ziyarətgaha doğru üz tutub getmək olar. Çünki şair sözünün işığında mənən saflaşırsan, ruhən təmizlənirsən, imam övladı olursan! Ziyarətgaha da məhz mənən təmiz və halal adam kimi getməlisən ki, ziyarətin də qəbul oluna.

Bu misraların işığında müqəddəs yerlərə ziyarətə necə getməyə bilərsən? Və həm də ziyarətə Qarabağ atının belində getmək necə də gözəl olardı!

***Anası Günəşdi, atası Aydı,***
***"Qıratdı", "Düratdı" Qarabağ atı!***
***Tanrı ərməğanı, butadı, paydı,***
***Baratdı, muraddı, Qarabağ atı!***

"Sevgi dolu şeirlər"də idrak və təsvir üslubu təzə, orijinaldır, həyati, dünyəvidir, təbii və ülvidir. Təbii və ülvi olduğuna görə də şeirləri ürəyə yatımlıdır, könül rahatlığı gətirəndir, oxucunu yaşamağa ruhlandıran, həyatdan zövq almağa, sevib-sevilməyə, qurub-yaratmağa, insanlara yaxşılıq etməyə, savab işlər görməyə səsləyəndir. Bu şeirlərə hopmuş hissləri, duyğuları canlı səs kimi eşitmək olur, çünki şair havada uçuşan səsləri "tutub" şeirə gətirərək oxuculara təqdim edir. Oxucular da bu şeirlərdə öz hisslərini, duyğularını, fikir və düşüncələrini hiss edir, ürək döyüntülərini, qəlb çırpıntılarını duyur. Şairin ürək döyüntülərilə oxucuların ürək döyüntüləri üst-

üstə düşür ki, bu da Zaur Ustacın əsl şair olduğunun göstəricisidir.

“Sevgi dolu şeirlər” kitabını bir nəfəsə oxusam da gəldiyim qənaət budur ki, Zaur Ustac sözün həqiqi mənasında lirik duyğular şairidir,  fikir və düşüncə şairidir. Onun şeirlərində fəlsəfi fikirlər özünü qabarıq şəkildə göstərir, eləcə də onun şeirlərində yalan və uydurma bir misraya, misralarında “laxlayan”, yerində olmayan bir sözə, bayağı, cılız hisslərə,  saxta, boğazdan yuxarı deyilən, cansıxıcı bir misraya da rast gəlmək mümkün deyil. Nə yaxşı ki, onun şeirlərində ümid  işığı var, bu günə, gələcəyə inam dolu ovqat var, mübarizəyə çağırış var, namərdlərə, şeytan adamlara nifrət var. Bu, belə olmalıdır. Axı o, şeirlərinin birində haqlı olaraq “Ustacam” deyir. “Ustacam” deyən şair ancaq düzü-düz, əyrini – əyri yaza bilər, qələmilə vətənə, millətə, Azərbaycan ədəbiyyatına xidmət edə bilər.

***Müzəffər ordunun şanlı əsgəri,***
***Ərənlər yurdunun ər övladıyam.***
***Zalımın zülmünə təhəmmülüm yox,***
***Babəklər yurdunun hürr övladıyam.***

Onu da deməyi özümə borc bilirəm ki, şairin şeirlərinin “dili” təbii və sadədir. Təbii və sadə olduğu qədər də xəlqidir. Onun şeirlərində poetik ritm pozulmur, misralar həzin bulaq kimi ürəyə rahatlıq gətirir, ovqatı təzələyir, şairin vətənpərvərlik duyğularından, yurd yerinə sevgisindən xəbər verir:

***Gəzdim qarış-qarış doğma torpağı,***
***Hər dağda, dərədə  izim var mənim.***
***Hələ keçilməmiş uca dağların,***
***Uca zirvəsində gözüm var mənim.***
(Gəzdim)

“Sevgi dolu şeirlər”in işığında sonetlər su çəkən kimi məni özünə çəkdi. Gözlərim önündə “Yazıçı” nəşriyyatında ötən əsrin 70-ci illərində çap olunan V. Şekspirin “Sonetlər” kitabı canlandı. O vaxtdan bu günə kimi Azərbaycan şairlərinin qələmindən (B. Adil istisna olmaqla) çıxan sonetləri oxumamışdım, görünür, rastıma çıxmamışdı, yoxsa gözümdən yayınmazdı. Bir sözlə, az qala əlli ilə yaxın idi ki, sonet janrında şeir oxumamışdım, amma Zaurun qələmindən çıxan sonetləri böyük maraqla, böyük həvəslə oxudum. Heyrətdən əllərim üzümdə qaldı. Bu sonetlərin sehrinə düşdüm,  cazibə qüvvəsindən çıxa bilmədim. Nə vaxtsa Zaurun sonetlərindən söz açmaq arzusu ilə sözümü tamama yetirmək istəyirəm. Həm də istəyirəm ki, bilələr: Zaur Ustac müasir Azərbaycan poeziyasına yeni nəfəs və ovqat bəxş etmiş istedadlı bir şairdir. Onun ürəklərə yol tapan hər bir şeiri Zaur dünyasının böyüklüyündən, Zaur yaradıcılığının zənginliyindən, novatorluğundan xəbər verir.

“Sevgi dolu şeirlər” onun zəngin və çoxşaxəli yaradıcılığından süzülən bir damla nurdur. Bu nurun özündə bir Günəş işığı var. Bu günəşin işığına yığışıb

şair qəlbindən süzülüb gələn şeirləri oxuyun, bu şeirlərin sehr-cazibəsinə düşün və unutmayın ki, Zaur Ustac kimi haqqa üz tutan şairlərin yanında olmaq Allaha da xoş gələr. Allahın xoşuna gəlməyi kim istəməz ki?

**Vaqif İSAQOĞLU,**

*yazıçı, publisist*

## "QUCAĞINI GENİŞ AÇ..."

İnsan nəsli tarixən sözə tapınıb, sözə sığınıb, sözdən güc alıb, içindəki yanğını sözlə söndürüb. Bəşər tarixində ən qanlı hadisələr sözlə ifadə olunub. Bir sözlə, söz bəşər övladının sevinc və kədərinin ifadəçisi olub. Belə demək mümkünsə, XX yüzilliyinin 80-cı illərinin sonunda, 90-cı illərin əvvəllərində Azərbaycan xalqı erməni nasizminin ərazi iddiaları və etnik təmizləmə siyasətinə qarşı ilkin olaraq sözlə savaşa atıldı. Və hər zaman savaşlarda olduğu kimi Qarabağ savaşında da əsas sözü poeziya dedi. 90-cı illərdən poeziyamızın palitrası artıb çoxaldı. İlk mövzu – torpaqlarımızın qorunmasında çağırış mövzusu ilə

diqqət çəkdi. Hüseyn Arifin “Göyçəlilər, dağılmayın Göyçədən” misrası ilə mübarizliyə çağırış motivləri şeirimizə haray saldı. Daha sonra Şəhidlik mövzusu, torpaq itkisi, didərginlik mövzusu, qərib məzar mövzusu və s. poeziyamızın əsas mövzusuna çevrildi. 30 illik poeziyamız sonlara doğru bədbinlik ruhuna kökləndi.

Və nəhayət, Ali Baş Komandanın göylərə yüksələn dəmir yumruğu həyatımızı, yaşantılarımızı dəyişməklə bərabər, həm də poeziyamıza Zəfər və qəhrəmanlıq mövzusunu ərməğan etdi. Poeziyamız ədəbiyyat tariximizə Zəfər-qəhrəmanlıq mövzusu ilə əbədi olaraq həkk oldu. Qarabağın, torpaqlarımızın azadlığı mövzusu, demək olar ki, Azərbaycan şairlərinin heç birinin yaradıcılığından yan keçmədi. Döyüşçü və zabit şairlərimiz isə keçdikləri həm ağrılı, həm şərəfli ömür yollarını oxucularla bölüşməyi üstün tutdular. Bu baxımdan Zaur Ustacın (Mustafayev Zaur Mustafa oğlunun) şeirləri diqqət çəkir. Onun Qarabağ mövzusunda yazdığı şeirləri mətbuatımızda çap olunur və sevilərək oxunur.

Zaur Ustacın şəhidlərimizin əziz xatirəsinə həsr etdiyi “40 gün - 40 şeir” kitabı oxucunu həm kövrəldir, həm də qürurlandırır. “Zabitlər” şeiri gələcək nəslin peşə seçiminə bir çağırışdır. Qeyd edək ki, bu, “zabitlər" ismilə poetikləşən rastlaşdığım ilk şeirdir.

Bu çox həssas hekayə;
Duymaz onu hər ürək.
Duymaq üçün bu qəlbi,
Bu yoldan keçmən gərək!

Nə gözəl deyir: "Bu sözün anlamını bilməz hər yoldan ötən, bu sözün sinonimi, gərək yazılsın Vətən!"

Nə duyğulu ideyadır, nə əvəzedilməz fikirdir. Əslində bunu da elə zabit ömrü yaşayanlar qəbul edər:

Zabit hava, zabit su,
Zabit yol, zabit torpaq,
Zabit tənha bir ağac,
Zabit zirvədə bayraq!

Şaxtada sınar şaxı,
Gündə çıxar cızdağı.
Palçıqlı çəkmələri
Daşır Vətən torpağı…

Sadə olduğu qədər də qürurlu, fəxarət hissi ilə dolu misralar... (Məni Murov dağlarına götürdü bu misralar. Qarlı Murov şaxtasında ucalıq zirvəsini fəth edən, Murov dağlarında qar tarında buz heykəllərə dönən döyüşçü zabitlərimiz gözlərim önündə

canlandı). Əslində tək "Zabitlər" şeiri haqqında səhifə-səhifə məqalələr, əsərlər yazıla bilər.

"Bu belədir"(əsgər haqqında ballada) şeiri isə döyüşçü əsgərin özü ilə söhbətidir, yaşantısıdır. Döyüşçülər haqqında yazılan şeirlər daha təsirli və eyni zamanda qürur doludur. "Qucağını geniş aç…" şeiri gizir Pəncəli Teymurova həsr olunub.

Qucağını geniş aç, gəlirəm, Ana torpaq,
Çox döymüşdüm qapını, səhər-axşam taq-taraq,
Hər gəlirəm deyəndə, əlimdə vardı bayraq,
O qutsal əmanətin, ünvanına yetibdi…
Sancmışam sancağımı, rahat gəlirəm indi…

Bir döyüşçünün hərb yolunu bu ifadələrlə dəqiq və təsirli verə bilmək hər şairə nəsib olmur. Bu misralar real olduğu üçün bu qədər təbii və təsirlidir. Axı o döyüşçülərlə şair eyni həyatı paylaşıb:

Sıra il ə gəlirik, yer ver girək qoynuna…
Çox dilək diləmişdim – Bayraq olsun kəfənim,
Xəyalım gerçək olub, sevinməsin düşmənim,
Dualarım qəbuldu, ağlamasın sevənim,
Ana, sən də gözünün qorasını sıxma ha…
"Oğul düşmən çəpəri", qurban gedər torpağa…

Bu misralarda canını torpaq uğrunda qurban verən bütün döyüşçülərimizin tam obrazı canlanır. Hətta belə demək mümkünsə, igidlərimizin sözlə çəkilmiş portretini görmüş oluruq. Kitabda generalımız Polad Həşimova, İlqar Mirzəyevə həsr edilən şeirlər də yer alır. Xüsusilə Ali Baş Komandana həsr edilmiş "Xalqımın, Ordumun İlhamı İlham" şeirində 44 günlük savaşda qalib olmağımızda Xalq və Ali Baş Komandan birliyi, xalqın İlham sevgisi poetikləşərək oxucuya təqdim edilmişdir.

Yüz ölçdü, bir biçdi, ustadan usta,
Mizanı yerində; nə tez, nə asta,
Cəngilər çalındı bu dəfə "Rast"da,
Tarixindən aldı ilham İlhamı!
Xalqımın, Ordumun ilhamı İlham!

Bir həmlədə pozdu kələyin, fəndin,
Uçurdu, dağıtdı illərin bəndin,
Hər dəfə yanıltdı düşmənin zəndin,
Tarixindən aldı ilhamı İlham!
Xalqımın, Ordumun ilhamı İlham!

Ustaca bəllidi zamanın feli,
Tarixdə dastandır babamın qolu,
"Dəmir Yumruq" oldu İlhamın əli,
Tarixindən aldı ilhamı İlham!

Xalqımın, Ordumun ilhamı İlham!

Zaur Ustacın yaradıcılığında Ali Baş Komandan və Azərbaycan xalqının birliyi zəfər dastanı kimi tariximizdə qalacaq.

Ömrünün 50-ci baharını yaşayan vətənpərvər zabit qardaşımıza ədəbiyyat yollarında yaradıcılıq uğurları, hərbi yolda sakit, açıq səma və cansağlığı arzu edək.

Qələmi iti, könlü sözlü-söhbətli olsun!

**Mərziyyə NƏCƏFOVA,**
*Filologiya elmlər doktoru,*
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı şöbəsinin baş elmi işçisi*

## KATREN - ÇƏLƏNGLƏRDƏN ÇƏLƏNG

Zaur Ustac müasir Azərbaycan ədəbiyyatının üzdə olan simalarından biridir. Bu məqamda onu qeyd etmək yerinə düşər ki, son illərdəki fəaliyyətini gözlər önünə gətirsək, Zaur Ustac yaradıcılığının əhatə

dairəsini hər hansı bir məkan və ya coğrafi ərazi subyektilə məhdudlaşdırmaq ədalətsizlik və böyük yanlışlıq olardı. İnternet resurslarından və müasir texnoloji üstünlüklərdən məharətlə yararlanan Zaur Ustac Azərbaycan hüdudlarını çoxdan aşmışdır. Şeirlərinin müxtəlif dillərə tərcümə olunması və doğma ana dilində fərqli qrafikalardan geniş istifadə onun internet üzərindən böyük auditoriyaya çıxışını asanlaşdıran əsas amillər kimi qiymətləndirilməlidir. Yenə son illərdə haqqında yazılan yazılara diqqət yetirsək, əksər qələm yoldaşları, ədəbiyyatçılar onu öz yazı üslubu olan yenilikçi şair, yazıçı kimi xarakterizə edirlər.

*"Zaur Ustacın ədəbi fəaliyyətinin bir yönü də onun mövzu seçimidir. O, əksərən "baxımsız qalmış", gözdən-könüldən iraq salınmış, unudulmuş yox, unutdurulan mövzulara da ürəklə, cəsarətlə göz yetirir, necə deyərlər, kölgədə saxlanılan həqiqətləri gün işığına çıxarır, yaddaşları dirildən kitaba çevirir. Bu da onun vətənsevərliyini fərqləndirən cəhətlərdəndir. Çünki o, sosial-ictimai maraqla mənəvi marağın kəsişmə bucağını müəyyən etməyi bacarır. O, ədəbi ştamplardan uzaqdır. Tarixi-mənəvi müstəvimizdə gəzişmələr edir. Maraqlı, aktual bədii konsepsiyalar, orijinal ədəbi konfiqurasiyalar axtarışındadır."* - "Ədəbiyyat qəzeti"nin № 46 (5274)

17 oktyabr 2020-ci il tarixli sayının, 29-cu səhifəsində dərc olunmuş tanınmış ədəbiyyatşünas alim, tənqidçi Qurban Bayramovun “Zaur Ustac-qələmdar olmaq missiyası” adlı yazısından təqdim etdiyim bu kiçik hissəyə diqqətlə nəzər salsaq, Zaur Ustac yaradıcılığında ilk baxışda nəzərə çarpmayan və ya az nəzərə çarpan bir çox mətləbdən agah ola bilərik.

*“Məncə, bir yaradıcı şəxs kimi onun ən əsas məziyyəti yenilikçi olması, ölçü və çərçivələrə sığmamasıdır. Zaur Ustac ənənəvi şeir formalarından istifadə etdikdə belə, onun dəst-xətti aydın sezilir.”* – bu fikirlər isə (“Kredo” qəzeti, 2020, 15 oktyabr, S.12) ədəbiyyatşünas–alim Ülviyyə Hüseynovaya məxsusdur.
Konkret olaraq bu kitaba gəldikdə isə “Katren” adı ilk olaraq ekvivalent kimi “Xəmsə” kəlməsini xatırladır. Bu məqamda Zaur Ustacın yenicə işıq üzü görmüş “Vaqif Mustafazadə” kitabından (“Rəylər” bölümündən) Vaqif İsaqoğlunun ***“****Zaur Ustac yaradıcılığında bayatılar və sonetlər xüsusi yer tutur. Təkcə bu amil onun nə qədər ümumbəşəri şair olduğunu göstərir. O şərqli olduğu qədər də qərblidir. Zaurun Vaqif Mustafazadənin 85 illiyinə həsr etdiyi sonetlər çələngi də formaca nə qədər qərblidirsə, məzmunca bir o qədər şərqlidir.”* rəyini xatırlatmaq istəyirəm. Bu fikirlər necə də artıq yuxarıda bir dəfə xatırlatdığım Qurban Bayramovun –“*O, ədəbi*

*ştamplardan uzaqdır. Tarixi-mənəvi müstəvimizdə gəzişmələr edir. Maraqlı, aktual bədii konsepsiyalar, orijinal ədəbi konfiqurasiyalar axtarışındadır.”* - fikirlərilə səsləşir.

Vaqif İsaqoğlu “Zaur Ustacın poetik dünyası” monoqrafiyasında sonetlər haqqında belə yazır:

***“S**onetlər su çəkən kimi məni özünə çəkdi. Gözlərim önündə “Yazıçı” nəşriyyatında ötən əsrin 70-ci illərində çap olunan V. Şekspirin “Sonetlər” kitabı canlandı. O vaxtdan bu günə kimi Azərbaycan şairlərinin qələmindən (B. Adil istisna olmaqla) çıxan sonetləri oxumamışdım, görünür, rastıma çıxmamışdı, yoxsa gözümdən yayınmazdı. Bir sözlə, az qala əlli ilə yaxın idi ki, sonet janrında şeir oxumamışdım, amma Zaurun qələmindən çıxan sonetləri böyük maraqla, böyük həvəslə oxudum. Heyrətdən əllərim üzümdə qaldı. Bu sonetlərin sehrinə düşdüm, cazibə qüvvəsindən çıxa bilmədim. Nə vaxtsa Zaurun sonetlərindən söz açmaq arzusu ilə sözümü tamama yetirmək istəyirəm. Həm də istəyirəm ki, bilələr: Zaur Ustac müasir Azərbaycan poeziyasına yeni nəfəs və ovqat bəxş etmiş istedadlı bir şairdir. Onun ürəklərə yol tapan hər bir şeiri Zaur dünyasının böyüklüyündən, Zaur yaradıcılığının zənginliyindən, novatorluğundan xəbər verir.* **“**

“Sevgi dolu şeirlər” kitabının ön sözündə filologiya elmlər doktoru, professor Vaqif Yusifli Zaur Ustacın sonetləri haqqında aşağıdakı qeydləri etmişdir:

*“Sonetlər çələngi düzüb-qoşmaq şairdən istedad tələb edir, gərək bu şeir növünün formal tələblərinə əməl edəsən, həm də on beş sonetdə məzmunu, irəli sürdüyün qayəni, məqsədi sonadək eyni ardıcIllıqla davam etdirəsən. Hər sonetin axırıncı misrası sonrakı sonetin ilk misrasına çevrilir və axırda-on beşinci sonetdə yeni bir sonet yaranır. Fikir tamamlanır.”*

Çox qiymətli ədəbiyyatçıların, dünya görmüş söz adamlarının Zaur Ustacın özü, sözü haqqında fikirlərini diqqətinizə çatdırdıqdan sonra bu kitabda yer almış sonetlər çələngləri barədə qısa qeydlərimi sizinlə bölüşmək istəyirəm.

Əvvəlcə onu qeyd edim ki, yuxarıda adı çəkilən ədəbiyyatçılar və digər tənqidçilər ayrı-ayrı vaxtlarda bu kitabda yer almış dörd sonet çələnginin hər biri haqqında və ya ümumilikdə öz fikirlərini bildiriblər. Bu rəylər dövrü mətbuatda, saytlarda, kitablarda dərc olunub.
Kitabda birinci təqdim olunan sonet çələngi “Xudayar dastanı” adlanır. Bu çələng şəhid Xudayar Yusifzadənin əziz xatirəsinə həsr olunub. Çələngin XV soneti belədir:

*Xudayar çağırdı anan adını,*
*Şəfqətlə əyilib öpdü üzündən.*
*Səni məhəbbətlə bağrına basdı,*
*Oğul ətri gəldi kövrək sözündən.*

*Böyüdün həyatda ər oğlu ərtək,*
*İstədin yurddaşın olsun bəxtiyar.*
*Qarabağ uğrunda gedən savaşda,*
*Adını tarixə yazdın, Xudayar.*

*Şəhidlik köynəyi geydin əyninə,*
*Düşməni almadın heç vaxt eyninə,*
*Qartaltək uçduğun zirvəyə döndün.*

*Səsindən qələbə ətri ələndi,*
*Zəfər sevincinə torpaq bələndi,*
*Vətəndə əbədi nəğməyə döndün.*

Kitabdakı ikinci sonet çələngi Zaur Ustacın şəxsən tanıdığı Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş mayor Quliyevin əziz xatirəsinə həsr olunub. Bu sonet çələngi haqqında digərlərinə nisbətən az yazılsa da çox təsirli əsərdir. XV soneti diqqətinizə təqdim edirəm:

*Qoqi dağlarının ətəklərində,*
*Şükür saf qəlbində, təmiz dilində,*
*Böyüdü bir barmaq, çiynində çini,*
*Xətiri, hörməti doğma elində.*

*Böyüdü həyatda ər oğlu ərtək,*
*Dostuna, tanışa nümunə oldu.*
*Həyat çox qəribə, yollar dolanbac,*
*İbrətli hekayə, nümunə boldu.*

*Yenidən dünyaya gəldi elə bil,*
*Boğazlar qurudu, söz tutmadı dil,*
*Ulu Bəhmənyarın ruhuna rəhmət.*

*Qartaltək uçduğu zirvəyə döndü,*
*Yenə həmin tərəf, elə o yöndü,*
*Qoqi dağlarında həmin əzəmət…*

Üçüncü sonetlər çələngi şəhid mayor Nəcəfi Elxanın ruhuna ithaf olunmuş “Hürriyyət elçisi”dir. XV sonet belədir:

*Bilirdi, “Sərhəddən başlanır Vətən!”*
*“Ata”, “Ana” deyil, “Araz” demişdi.*
*Nisgili, həsrəti dadmışdı erkən.*
*Şəkər əvəzinə ayaz yemişdi...*

*Babası hürriyyət carçısı Həsən.*
*O taylı, bu taylı Yurd idi Elxan!*
*Anası Afətdi, atası Şükür,*
*Güllü nənə demiş: - “Qurd” idi Elxan!*

*Bir elin xanıydı, adıyla Elxan,*
*Əməli eylədi məşhuri-cahan,*
*Şəhidi – şühəda Nəcəfi Elxan...*

*Ruhu Kərbəladan, qutu Nəcəfdən,*
*Bəzzdə məskən salan ulu xələfdən,*
*Dərs alan elçidi Nəcəfi Elxan...*
bu əsərdə sanki müəllif demək istədiklərinin hamısını demir... Bəlkə gələcək başqa əsərlər üçün saxlayır. Bütün əsər boyu bir gərginlik, sıxıntı var. Hətta bir neçə yerdə Vaqif Yusiflinin qeyd etdiyi qaydalar da pozulub.

Nəhayət sonuncu və ən yeni yazılmış sonetlər çələngi Vaqif Mustafazadənin 85 illiyi münasibətilə qələmə alınmış "Vaqif Mustafazadə" əsəridir. Zaur Ustac burada sanki Azərbaycanın, Abşeronun, Bakının, İçərişəhərin mənzərəsi fonunda Vaqif Mustafzadənin portretini yaradır. Bu məqamda Vaqif Yusiflinin - *"Vaqif Mustafazadəyə həsr etdiyi və ingilis soneti formasında yazdığı şeiri də Vaqifin sənətkar portretini yaratmaq mənasında uğurludur."* - kimi qiymətləndirdiyi, bu kitabda yer almayan Zaur Ustacın Vaqif Mustafazadəyə ithaf olunmuş ingilis soneti formasındakı şeiri sizə təqdim edirəm:

## VAQİF DÜNYASI

*(**Vaqif Mustafazadənin doğum gününə**)*

*Vaqifin barmağından doğulan bir dünya var,*
*Səmədin qələmindən doğulan dünya kimi.*
*Yeddi qat, yeddi arğac mayası sirr dünya var,*
*Səttarın fırçasından doğulan dünya kimi.*

*Vaqifin barmağından doğulan bir dünya var,*
*Ana laylası kimi, nənə bayatısıtək.*

*Onun barmaqlarında dilə gəlir arzular,*
*Ata duası kimi, baba hayqırtısıtək.*

*Vaqifin barmağından doğulan bir dünya var,*
*Ta qədimdən bu günə, ilmə-ilmə toxunur.*
*Anamın hanasında olan sirli naxışlar,*
*Vaqifin barmağında kəlmə-kəlmə oxunur.*

*Vaqifin barmağından doğulan bir dünya var;*
*Azərbaycandır adı, – mənim yurdum bu diyar!*
Diqqətimi maraqlı bir məqam cəlb etdi. Zaur Ustacın publisistik yazılarından və ayrıca kitab şəklində çap olunmuş bu dörd sonetlər çələngindəki qeydlərdən belə məlum olur ki, əsər ithaf etdiyi dörd real şəxsdən ancaq mayor Quliyevi şəxsən tanıyıb. Digər iki şəhidi isə çoxlarımız da tanıyırıq. Ümumilikdə götürdükdə üç əsər şəhidə həsr olunub.  Zaur Ustac  yaradıcılığının ən çiçəklənən dövründə qəfil vəfat etmiş Vaqif Mustafazadəni də şəhidlər sırasına qoşur. Demək olar ki, onu sənət fədaisi, milli-mənəvi dəyərlər uğurunda həyatını itirmiş milli-mədəniyyət cəbhəsinin şəhidi elan edir.

Yuxarıda istinad etdiyim qiymətli ədəbiyyatçıların söz və fikirlərinə söykənərək böyük inamla qeyd etmək istəyirəm ki, Zaur Ustac öz ədəbi fəaliyyəti ilə seçilir.

Bu fərqlilik onun yazı üslubunda, mövzu seçimində, ifadə vasitələrində özünü bariz şəkildə göstərir.

Sözümün sonunda konkret olaraq yenə “Katren”ə gəlincə, bu kitab Azərbaycan ədəbiyyatı tarixində bir ilkdir. Qurban Bayramovun illər əvvəl qeyd etdiyi, - “*Maraqlı, aktual bədii konsepsiyalar, orijinal ədəbi konfiqurasiyalar axtarışındadır.”* – fikri öz bəhrəsini verib. Zaur Ustac ustacsayağı bədii həll tapıb. Vaqif İsaqoğlu belə qeyd etmişdi: - “*O şərqli olduğu qədər də qərblidir.”* Bəli. Bax elə bu prizmadan çıxış edərək deyə bilərəm ki, Zaur Ustac beş poemadan ibarət olan “Xəmsə”yə ekvivalent olaraq dörd sonet çələngindən ibarət “Katren”ini yaratmışdır. Gələcəkdə digər şairlərin də yeni “Katren”ləri haqqında yazmaq ümidilə sizə “hələlik” deyirəm.

**Günnur Ağayeva**
*Müstəqil ədəbiyyatşünas-tənqidçi*

# MÜSAHİBƏLƏR

**Söhbətdaşımız – Azərbaycan ədəbiyyatının parlaq simalarından biri, şair, yazıçı, tərcüməçi və jurnalist, "Yazarlar" jurnalının baş redaktoru, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü, "Qızıl Qələm" mükafatı laureatı Zaur USTAC dır.**

**1 — 1988-ci ildən ədəbi fəaliyyətə başlamısınız. Həmin dövrün ruhi-siyasi ab-havası və ilham mənbələri Zaur Ustacın qələm ustalığını necə formalaşdırdı? O illərin yükü bugünkü qələm səslənmələrində necə əks olunur?**

— *Doğrudur. "Əməyə məhəbbət" adlı ilk yazım 24 may 1988-ci ildə rəsmi mətbu orqanda dərc olunub. O dövrün mövzuları əsasən əməyi və bayramları tərənnüm etmək idi. Real gündəlik həyatımızı əks etdirən yazılar yazırdıq. Necə deyərlər, – "düzü-düz, əyrini-əyri". Məncə o illərdən bu günə daşıdığım ən faydalı vərdişlərim elə budur – realist olmaq, hər şeyə açıq gözlə baxmaq, yaxşıları tərənnüm etmək, əhmiyyətli əməllərdən söhbət açmaq, xalqın içində – gündəlik həyatda olmaq. Zəhmətkeş olmaq. Yorulmadan, usanmadan çalışmaq. Bax belə.*

**2 — Siz tez-tez "qələm saflığı" anlayışını vurğulayırsınız. Bu ifadə sizin üçün şəxsi inancdır, yoxsa ədəbi bir manifest?**

—*Əvvəlki sualınızın cavabında qeyd etdiyim kimi, biz belə öyrənmişik. Bu bir normadır. Faydalı, əhəmiyyətli uzun illərin sınağından çıxmış ədəbi norma – manifest də deyə bilərsiniz. Kəsədən bu bizim iş*

*qaydamızdır. Məncə xeyir, fayda bu yoldadır. Ümumi işimizin xeyirinədir.*

**3 — Yazıçılar bu gün xalqın qəlbi və vicdanı olaraq necə bir rol oynamalıdır, sizcə?**

—*Cahangir qardaş, sualları elə seçmisiniz ki, söhbətimiz tam bir yazı kimi – nəzm kimi axır. Maşallah olsun. Bu sualın cavabı elə bayaq söylədiklərimdir. Yazıçı da, şair də, alim də xalqın içində olmalıdır. Onların nə düşündüyünü, gündə neçə dəfə, nə yeyib, nə içdiyindən xəbərdar olmalıdır. Məsələn götürək elə mənim ilk qələm təcrübələrimin dərc olunduğu vaxtları… Bəxtiyar Vahbzadə, Xəlil Rza, Xudu Məmmədov, Anar, Elçin… Keçənlərə rəhmət, qalanlara can sağlığı. Yaradıcılıq məhsulu, yazar sözü səmimi və içdən olanda həm də faydalı olur. Deyən üçün də, eşidən üçün də. Xalqın vəziyyətindən xəbərdar olmalı, real həyatdan yazmalı, xalq üçün faydalı, gələcək nəsillər üçün tarix yazmalıdırlar. Bu qədər.*

**4 — Qarabağ müharibəsi həyatınızda və yaradıcılığınızda necə iz buraxdı?**

—*Bir gündə dünyada mövcud olan maraqların çoxu yoxa çıxdı. Çox məsələlər adilişdi. İnsan olmağın, insanlığın, sağlamlığın, sağ qala bilməyin dəyəri, vacibliyi artdı. Zamanın ən dəyərli nemət olduğunu anladım. Salamat olduğum hər an üçün daha çox şükür etməyə başladım. Daha çox işləməyə və yaxşılıqlar, təmənnasız yaxşılıqlar etməyə başladım. Və biz nə etsək də Böyük Allahın bizə olan lütfünün qarşısında çox cüzi – dəryada bir zərrə misalı – nəsə edə biliriksə, nə xoş halımıza.*

**5 — "Ustac.az" mərkəzi vasitəsilə siz elm, yaradıcılıq və şəxsi inkişafı bir araya gətirmisiniz. Sizcə, bu mərkəz gələcəkdə hansı istiqamətlərə xidmət etməlidir?**

— *Bizim fəaliyyətimiz elə bu istiqamətdə də davam edəcək. Yaşından, mənsəbindən, cinsindən asılı olmayaraq bizə ehtiyacı olanların yanında olacağıq. Bu bizim məqsədimiz, məramımız, işimizin qayəsidir.*

**6 — Həyatın ən ağır dərslərindən biri — itkilərdir. Siz bir yaradıcı şəxs olaraq itkilərdən nələri öyrəndiniz?**

—*Həyatda olduğum hər an üçün şükr etməyi və əlimdə olana dəyər verməyi öyrəndim. Paylaşmağı və bundan zövq almağı öyrəndim. Sözün əsl mənasında həyat paylaşdıqca daha gözəl olur. Belə ibrətamiz suala görə sizə xüsusi təşəkkürlər.*

**7 — İnsan üçün iki böyük vətən var: biri doğma torpağı, digəri — qəlbidir. Siz bu iki vətən arasında ədəbiyyat vasitəsilə necə bir körpü qurmusunuz?**

—*Mən onları birləşdirmişəm. Divin canı şüşədə olan kimi, mənim də qəlbim elə öz torpağımda rahatlıq tapır, asudə döyünür, ritmini bu Yurdun bulaqlarının, şəlalərinin səsinə uyğunlaşdırır. Mən bununla xoşbəxtlik tapıram. Yurdumun çiçəkləndiyin gördükcə fəxarət hissi köksümü qabardır. GƏNCLİYİMİN HƏDƏR GETMƏDİYİNİ ANLAYIRAM. Bu bir başqa hissdir.*

**8 — Həyatın çətinliklərindən yorulan zaman insanlar ya səssizliyə, ya da dua və ibadətə yönəlir. Siz yorğunluqdan ruhən necə xilas**

**olursunuz — şeir yazaraqmı, təbiətə baxaraqmı, yoxsa dinclik içində susaraqmı?**

—*Mən bu barədə bir neçə dəfə demişəm. Mənim bu günə kimi heç bir çətinliyim olmayıb. Ürəyimdən nə keçib, Böyük Allahım hamısını mənə nəsib edib. Sadəcə Yurdumu gəzməkdən, şeir yazmaqdan, şeir söyləməkdən zövq alıram. Yazılması vacib bildiyim mətləbləri əsasən gələcək nəsillər üçün qələmə alıram. Bu qədər.*

**9 — Bu günkü nəslin elmi və intellektual potensialı sizi ruhlandırır, yoxsa narahat edir?**

—*Bütün hallarda sevinirəm. Ruhlandırır.*

**10 — Özbəkistan və Azərbaycan xalqları arasında ədəbi-mədəni əlaqələri necə qiymətləndirirsiniz? Bu münasibətləri hansı yeni mərhələyə çıxarmaq olar?**

—*Bizm xalqlarımız sözün əsl mənasında qardaş xalqlardır. Dilimiz bir, adətlərimiz birdir. Tarix boyu daim bizi ayırmağa, yad kimi təqdim etməyə çalışsalar da, bax bu gün bizim aramızda olan söhbət sübut edir ki, heç kim, heç nəyə nail ola bilməyib. Şübhəsiz ki, gələcək daha gözəl olacaq. Bütün sahələrdə daha da sıx əlaqələr qurulacaq.*

**11 — Şair daim içində nəyisə itirmiş, axtaran, kövrəlmiş bir haldadır… İtkilər sizdə hansı şeirlərə çevrilib?**

—*Maraqlı və ibrətamiz sualdır. Əlaxsus torpaqlarımızın müdafiəsi və azad olunması uğrunda Həmdəm Ağayev, Vüqar Ağayev, Şükür Həmidov, İlqar Mirzəyev kimi qardaşlarımızı itirməyimiz mənə çox pis təsir etdi. İlqara ithaf etdiyim silsilə şeirlər var.*

*Lap bu yaxında “40 gün – 40 şeir” adlı şəhidlərimizə həsr etdiyim şeir kitabı nəşr olunub.*

**12 — Zaur Ustac öz qəlbini necə eşidir? Özünüzlə daxili dialoqu necə aparırsınız?**

*Çox həssas insanam. Bəzən bu mənə əziyyət verir. Əzab çəkirəm. Sakit olduğum qədər də çılğınam. Demək olar ki, bu günə qədər ancaq ürəyimin səsi – diqtəsi ilə yaşamışam. Beynimə ancaq riyazı hesablamalar aparan zaman müraciət edirəm. Ruhumla dialoqum həmişə uğurlu alınır. Özüm özümü yaxşı tanıyıram.*

**Söhbətləşdi**: **Cahangir NAMAZOV**,
*Azərbaycan Jurnalistlər Birliyinin və*
*Dünya Gənc Türk Yazarlar Birliyinin üzvü*

**Həmsöhbətimiz – "Yazarlar" jurnalının baş redaktoru, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü, "Qızıl Qələm" mükafatı laureatı Zaur USTAC dır.**

**Sual:** Yazı yolunda ilk addımlarınızı atarkən hansı çətinliklərlə üzləşdiniz və onları necə aşdınız?

**Cavab:** Tam səmimi, ilk yazılardan heç bir çətinliklə üzləşmədim. İlk addımlar dediyiniz vaxt ötən əsrin 80-ci illərinə təsadüf edir. Həmin dövrdə gündəlik həyatımızda baş verən hadisələr barəsində yazdığım yazıları əsasən Ağdam rayonunda dərc olunan "Lenin yolu" qəzetinə göndərirdim. Göndərdiyim yazılar adətən dərc olunurdu. Göndərdiyim yazılar ayrıca məqalə şəklində dərc olunmayanda belə "Sətirlər" başlığı altında yazıdan mühüm məqamlar mütləq verilirdi.

**Sual:** Həyatınızda dönüş nöqtəsi saydığınız bir hadisəni bizimlə bölüşə bilərsinizmi?

**Cavab:** Hərbi xidmət. 5 aprel 1993-cü il, axşam saatlarında (təxminən 17:00-18:00) Yaşmada Azərbaycanda yeni yaradılan Xüsusi Təyinatlı bölmələrin toplanış məntəqəsinə düşdüyüm an (hətta düşməmiş belə, bizi gətirən hərbi maşının yük yerindən gənc əsgərlərin ora-bura qaçışdığı səhnəni gördüyüm andan) həyat haqqında olan bütün fikirlərim köklü şəkildə dəyişdi. Hələ də həmin əhval-ruhiyyədəyəm.

**Sual:** Peşəkar həyatınızda sizə dəstək olan bir insan olubmu? Onun hansı xüsusiyyətləri sizə xüsusilə təsir edib?

**Cavab:** Bəli. Həyatımın istənilən pilləsində dəstəkçilərim olub. Onların həssaslığını, ədalətli mövqeyini qiymətləndirirəm. Və mümkün qədər ənənəni davam etdirməyə çalışıram. Xüsusilə  hərbi təhsil aldığım vaxtlarda mayor Orucəliyevin etdiyi yaxşılıqları heç vaxt unuda bilmərəm. Allah rəhmət eləsin.
**Sual:** İllər ərzində qazandığınız ən dəyərli həyat dərsi nə olub və onu necə öyrəndiniz?
**Cavab:** İstənilən bir hadisədən ibrət götürməyi bacarıram. Bu xüsusiyyəti uzun zaman çətin şəraitlərdə, müxtəlif kollektivlərdə insanlarla işləyərkən qazandım.
**Sual:** Gənc qələm sahiblərinə və yaradıcı insanlara verəcəyiniz ən vacib məsləhət nə olar?
**Cavab:** İstənilən sahədə çalışan gənclər üçün deyirəm ki, məqsədyönlü çalışan şəxs bütün arzularını reallaşdıra bilər. Məqsədiniz dəqiq olsun, hədəflərinizi aydın görün və inamla irəli! Vəssalam!
**Sual:** Yaradıcılıq böhranına düşəndə özünüzü necə toparlayırsınız? İlhamı harada və necə tapırsınız?
**Cavab:** Mümkün qədər çox gəzirəm, daim müşahidə aparıram. Hazırda irili-xırdalı çoxlu əsərlərin (məqalə, poema, hekayə, povest, roman, pyeslərin) möhtəviyyatı hazır olsa da, oturub işləməyə vaxt yoxdur. Hələlik böhranla üzləşməmişəm. Məncə daim xalqın içində olan yaradıcı şəxs böhranla üzləşməməlidir. Əgər belə bir hal olarsa, gəzmək, görmək lazımdır.
**Sual:** Oxucularınıza təkcə hekayələr yox, həm də dəyərlər ötürmək istədiyinizi hiss edirik. Bu dəyərlər

sizdə necə formalaşıb?
**Cavab:** Məncə əsas xüsusiyyətlər genlə ötürülür. İndi müxtəlif vasitələrlə ötürməyə çalışdığımız dəyərləri zamanla ata – babalarımızdan əxz etmişik.
**Sual:** Zaman keçdikcə yazı üslubunuzda və yanaşmanızda hansı dəyişikliklər baş verdi? Sizin üçün inkişaf nə deməkdir?
**Cavab:** Gənclik illərində (konkret olaraq 1990-1993-cü illərdə) nəsr və nəzmlə dram əsərləri də yazırdım, satirik şeir daha çox yazırdım indi bunları azaltmışam. Fikirləri çatdırmağın daha kəsə və asan yollarını axtarıram.
**Sual:** Uğur bəzən insanı zirvəyə, bəzən isə təkliyə aparır. Uğur qazandıqdan sonra həyatınızda nələr dəyişdi və bu dəyişikliklər sizi hansı düşüncələrə gətirdi?
**Cavab:** Sizə bir söz deyim. Hər ilin sonunda özüm özümə hesabat verirəm (son illər bu hesabatlar dərc olunur). Bundan əlavə hər yeni il başlayanda özüm üçün görəcəyim işlər barədə aylara, rüblərə bölünmüş şəkildə illik plan tuturam. Və il boyu bu işlər reallaşdıqca nisanlayıram (“+” işarəsi qoyulur) hər “+” özlüyündə mənim üçün böyük uğurdur. Uğurların sayı artdıqca məsuliyyət hissi daha çox artır. Sanki, özümü daha çox iş görməyə borclu hesab edirəm. Bu qədər.

**Söhbətləşdi: Südabə MƏMMƏDOVA**
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

**BİZ İŞIĞA DOĞRU İRƏLİLƏYİRİK!**
Birinci Qarabağ müharibəsinin ağır illərində mübarizə aparan və Azərbaycanın ədəbiyyatına dəyərli töhfələr verən şair, publisist, Azərbaycan Jurnalistlər Birliyinin və Azərbaycan Yazıçılar Birliyinin üzvü Zaur Ustac. Onun həyat yolu, müharibə təcrübələri və ədəbiyyata olan sevgisi, çoxlarının tanıdığı bir şəxsiyyətin arxasında dayanan dərin məna daşıyır. Bu müsahibədə Zaur Ustacla həyatının və yaradıcılığının izlərini danışacağıq.

**– Əsl adınız Zaur Mustafayevdir. “Ustac” ləqəbini seçməyinizin hekayəsi nədir? “Ustac” nə deməkdir və niyə məhz bu adı seçdiniz?**
-“Ustac” təxəllüsünü ilk dəfə təxmini  90-cı illərdə yazdığım bir şeirdə işlətmişəm. Şeirdə bir benddə yazmışam:

*Saçların var qulac-qulac,*
*Ustac olub sənə möhtac.*
Bu şeirdən  sonra “ustac” maraq yaratdı və mən də bunu seçdim. Bir  təxəllüsüm olub. İlk şeir yazmağa başlayanda götürdüm və indi də işlədirəm. Həm də hər iki tərəfdən nəslim ustaclı tayfasına- Ərdəbilə- Arazın o biri tərfəinə gedib çatır. Bunun da yəqin ki, bir rolu var. Böyüdükdən sonra başa düşdüm ki, belə əlaqə də var. Peşman olmadım və bu gün də fəxr edirəm ki, bu ləqəbi ləyaqətlə daşıyıram.

**– Həm nəsr, həm nəzm yazırsınız. Hansı anda hansı üslub sizi daha çox özünə çəkir? İçinizdə hansı daha güclüdür – şair, yoxsa nasir?**
-Mənim üçün heç bir fərqi yoxdur. Niyə? Biz hamımız dastanlarla, aşıq söhbətləri, onlar olmayan zaman- uzun qış gecələrində babaların, nənələrin söhbətləri ilə böyümüşük. Mən 1975-ci il təvəllüdəm. 1979-cu lin mart ayından- Novruz bayramından bugünə kimi hər şeyi xatırlayıram. Belə bir yaddaşım var. Bizim ailəmiz böyük olub. Övladlar, nəvələr qış gecələrində baba evində toplaşardılar.Müxtəlif söhbətlər gedərdi. Həmişə nəzmlə nəsri birlikdə görmüşük. O, deyir, “aşıq sazla dediyini sözlə də dedi”. Ona görə, elə bir fərq görmürəm. Amma yazı yazan zaman sırf həmin məqamla bağlıdır ki, heç nə birdən-birə yaranmır. Beynində düşündükdən sonra nə vaxtsa yazıya köçürüsən. İnsanın özündən asılı deyil. Nəzmlə gələndə nəzmlə yazırsan, nəsrlə gələndə nəsrlə. Yadımdadır ki. “Oriyentir Ulduzu” əsərini yazmışam Mübariz İbrahimov haqqında. Onu mən səhər 5 radələrində əlimdə kitab- dəftər uzaq yol gedərkən yazmışam. Necə ki, indi ağlıma gələn bir şeiri telefona yazıb qeyd edirəm, o zaman da bu əsəri yazıya səhər saatlarında yazdım bitirdim.

**-Gənclik illərində təhsili yarımçıq qoyub müharibəyə getmisiniz. O qərarın arxasında hansı duyğular dayanırdı? Bu yaşantılar yaradıcılığınıza necə hopdu?**
– Bu həqiqətən maraqlıdır. Mən ümumiyyətlə 1-ci sinifdən 11-ci sinifə kimi təhsilimi Ağdam rayonunun

Yusifcanlı kənd orta məktəbində almışam. Birinci ordan olmağım rol oynayır. Əslində fərqi yoxdur, Bakıda da yaşasaydım, eynisi olacaqdı. Xasiyyət dəyişməzdir. Mən Ağdamda  hərbi qeydiyyatda olmamışdım, həmin zaman hərbi xidmətə rəsmi şəkildə başladığım məqamı desəm, bütün xidmət boyu həmin günü apardığım şəkili hərbi biletə yapışdırıblar və möhürsüz şəkildə hərbi biletlə məni xidmətə göndərmişdilər. Şükür heç problem olmadı. Hər kəsin bir missiyası var, Yaradan özü qoruyur. Mən Bakı Dövlət Universitetinə qəbul olmuşdum, girirdik əsas binaya, baxırdım 5-ci kurs tarix tələbəsi, hüquq tələbəsi, hamısı buraxılışa bir-iki ay qalmış şəhid olub və şəkilləri asılıb. Elə bir zamanda qalıb oxumaq mümkün deyildi. Başqa variantımız yox idi. İndi də yadımdadır, Dəmiryol Vağzalında uşaqlar yola salanda 4 yoldaş idik- birimiz tibbdə, birimiz İqtisad Univeristetində, birimiz də Pedoqoji  Universitetdə oxuyurduq. Hamısı neçə dəfə dedi ki, Zaur getmə, düzgün addım deyil. Ancaq mən getdim və peşman da deyiləm. Atəşkəsdən sonra da mən bir il xidmət etdim. Hətta hərbi xidmət atəşkəsdən sonra arayış da verdi ki, “biz təhsilini davam etdirməyinə narazı deyilik”. Atəşkəsdən bir il sonra gəldim universitetə, o zamanlar Rasim müəllim var idi. Sağ olsun o girişdə qarşıladı, məsələhətlər verdi. Hazır sənədlərlə gəlmişdim. 2 seçim var idi, ya Bakı Dövlət Universitetində təhsilimi davam etdirəcəkdim, ya da hərbi akademiyaya  gedəcəkdim. Onun məsləhəti ilə oranı seçdim, təhsilimi orada davam etdirdim. Sonra

peşəkar hərbiçi oldum, xidmət etdim, indi də ehtiyata buraxılmışam.

**-Şeirlərinizdə tez-tez vətən, torpaq, ana yurd mövzularına rast gəlirik. Bəzən düşünürlər ki, bu mövzular klassikdir. Siz bu mövzulara necə yenilik, öz imzanızı gətirirsiniz?**

– Bütün söhbətlərdə deyirəm ki, bu mənim öz seçimim deyil. Bu gün bütün söz ehtiyatıma görə, həyatda əldə etdiyim nailiyyətlərə görə hamısnı borcluyam Ağdamın Yusifcanlı kəndində keçirdiyim uşaqlığa. Həm müəllimlərimiz savadlı və tələbkar idi, həm də nənə və babalarımızın rolu böyük idi. Bu yenə bizim adət-ənənələrimizə qayıdır. Ailə vacibdir. İlk yadımda qalan nəzm nümunəsi nənəmin bir gündə 10 dəfə oturanda dediyi şeir yadımdadır.

**Araz, Araz, xan Araz,**
**Alış Araz, yan Araz ,**
**Otun, suyun qurusun,**
**Mənim kimi yan Araz**

İlk yadımda qalan nəzm budur. Əvvəllər Araz dərdi, sonra torpaqlarımızın işğal edilməsi, onun müxtəlif səbəblərdən olmağı bu yazıları yazdırırdı.

Həm hərbi xidmətdə olmaq, həm elə bir ailədə böyümək, həyatı boyu bu işin içində olmaq, axtarmaq, araşdırmaq istəyi məcbur edir ki, bu mövzuda yazaq. Hansı mövzudan yazsam gedib o mövzulara toxunur.

**-Tərcümə kitablarınız da var. Bir yazıçı və şair üçün tərcümə etmək yaradıcılıqla necə uzlaşır? Tərcümə prosesində ən çox nəyə diqqət edirsiniz?**

-Tərcümə məsələsi də maraqlıdır. Mən o fəaliyyətimə istəmədən başlamışam. Atəşkəsdən sonra gəldim hərbi məktəbə, orada təhsil rus dilində idi. Təhsilin ortalarında keçmək lazım oldu Azərbaycan dilinə. Bizim də bütün otaqlarımız rus dilində yazılarla dolu idi. Mən Hava Hücumlarında Müdafiə Qoşunları üzrə oxumuşam və bu  ən çətinidir. Sonra digər sahələr gəlir. Bizim qrupda 25 nəfər var idi onlardan rus dillilər də var idi. Mən ucqar kənddə təhsil alsam da, rus dilində çox  danışmasam da, bu dildə yaxşı mütaliəm var idi. 1-ci kursun sonlarına yaxın bir qrup yoldaşım kursantla birlikdə kafedra rəhbərliyi tərəfindən müəyyən vaxt verilirdi, (hərbidə qayda idi ki tapşırıq deyilən vaxtda hazır olmalıdır) tərcümələr edirdik. Rizvan var idi qrup yoldaşım, hazırda da xidmət edir. Əlinə dəftər alırdı, mən tərcümə edirdim, o da yazırdı. Bizim tərcümələrimizi də katibə xanım yazıb divarlara asırdı.

Hərbi təhsil alan şəxslər bilir ki, bizə iki ixtisas verirlər. Biri hərbi komandan, digəri oxuduğu ixtisas üzrə mühəndis. Mən həm də mühənidsəm. Hamıya maraqlı idi ki, mən nə təhsili alacam. Əvvəllər dini təhsil almağı düşünürdüm. Sonra fikrim dəyişdi. Tam olgunlaşandan, müxtəlif kateqoriyalardakı insanları tanıdıqdan sonra qərara gəldim ki, ibtidai sinif

müəllimi olmalıyam. Ordan başlayım ki, gələcəyə töhfə verim. Pedoqoji təhsil almışam .

Mən kitabları çox alıram. Əlimdən minlərlə kitab keçib, bəzilərini bir neçə dəfə almışam, bəzilərini hədiyyə etmişəm və.s.

Elə kitablar var ki, mənə çox maraqlıdır, tərcümə edib yazmışam ki, uşaqlarda oxusun. Azyaşlılar üçün tərcümə etdiyim kitablar insanın birbaşa ürəyinə toxunur, onun formalaşmağına kömək olur. İnanıram ki, o əsərləri uşaq vaxtı kim oxuyubsa, böyüdükdən sonra da yenə oxuyacaq.

**– Ədəbi mühitdə Zaur Ustac adını eşidənlər sizi necə tanısınlar istərdiniz: döyüşçü şair, realist nasir, yoxsa bir tərcüməçi müəllim?**
-Düşünürəm ki, məni insanlar şair kimi tanısınlar. İlk onunla-nəzmlə başlamışam deyə şair kimi tanısınlar.

**– Yaradıcılıq yolunuzda ən çətin və ən işıqlı anlarınız hansılar olub? Birini bölüşə bilərsinizmi?**
-Heç bir çətin zamanım şükür ki, olmayıb. Azyaşda bu sahəyə başlamışam və çox yoldan keçmişəm. Özüm də fərqindəyəm. Ancaq heç vaxt heç bir vəziyyətdə çətinlik hiss etməmişəm. Kənardan baxanda çətin görünə bilər, amma heç bir çətinlik olmadı.
Həmişə şükür edərək davam etdim. Ancaq işığa doğru özümü hərəkətdə görürəm.

**– "Yazarlar" jurnalının baş redaktorusunuz. Bugünkü gənc qələm sahiblərinə baxanda hansı ümidi, hansı boşluğu hiss edirsiniz?**

– Yenə də tarixdən körpü atmasam, bu söhbətə gəlmək mümkün deyil. Niyə? İstənilən dövrdə insanlar həmişə iki yola ayrılıblar. Ən azı, ən ümumi baxımdan: sağçılar, solçular. Mifologiyada da belədir – xeyir, şər. Bu günün özündə də, məsələn, gənclər sırf iki yerə bölünürlər. Bax, bizdə, Azərbaycanda yaşayıb xainə, düşmənə işləyən gənclər bu saat da var. Başa düşmək olmur ki, onlar bunu niyə edirlər.

Bax, məsələn, bir müddət şəhid məqalələrini sildilər sosial şəbəkələrdə. İndi də o davam edir. Hələ hazırda da həmin o qrup – bizim alimlərin, tanınmış şəxslərin, vəfat edənlərin, yaşayanların – fərq etməz, onların məqalələrini, hər yandan şəkillərini silirlər. O xain, düşmən – adını da çəkmək istəmirəm onların məqalələrini yaradırdılar. Tutaq ki, 1950-1951-ci illərdə bir nəfər burada yaşayıb, Pedoqoji Universitetdə işləyib. Onu heç kim tanımır. Bizim akademiklər, alimlər də tanımır. Amma həmin adamın Azərbaycan dilində məqalələrini yaradırlar erməni mənbələrinə istinadən, bizimkiləri isə silirlər. Bu, bunun pis tərəfidir. Sizin bu söhbətdən istifadə edib, bütün hüquq-mühafizə orqanlarına, bu işlə məşğul olanlara – ictimai təhlükəsizlik, kibercinayətkarlıq, aidiyyəti idarələrə buradan çağırış edirəm ki, bu məsələni nəzarətə götürsünlər, məşğul olsunlar. Bu, artıq bir nəfərin işi deyil. Qrup şəklində, gənclərin əməyidir bu. Bu yaşlı adamlar olsa, yenə

göz yummaq olardı. Ancaq bunlar gənclərdir. Məsələn, 18-25 yaş arası şəxslərdir. Bunların hələ gələcəkdə nə qədər ömrü var. Bu, o deməkdir ki, 50-60 il bu işlə məşğul ola bilərlər. Bu isə bizim ziyanımızdır.

Əvvəldən də dedik ki, biz işığa doğru irəliləyirik, yaxşı işlərlə məşğuluq. Kimsə bizi dəli saya bilər, kimsə ağılsız saya bilər. Ancaq hər şeyin bir adı var.Bizim pis işlərlə məşğul olmağa vaxtımız yoxdur. Ancaq yaxşıdan danışmalıyıq.

Gənclərdən Südabə Məmmədova var. Onun kitabı çap edilib. Jurnalın fəaliyyəti olub, artıq bir neçə dəfə də nəşr olunub. Bir dəfə də Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində təqdimatı da olub. Biz onu boş yerə seçməmişik. “Yazarlar” jurnalını qeydiyyatdan keçirəndə – 2007-ci ildə – oranın nizamnaməsində yazmışıq ki, bu ədəbi mühitə, cəmiyyətə çıxışı asanlaşdırmaq üçün uşaqlara, gənclərə, yeniyetmələrə kömək edək. Bizim email ünvanımız, WhatsApp nömrəmiz – əlaqə vasitələrimiz yaşından asılı olmayaraq hamı üçün açıqdır. Hər kəs də oraya göndərir. Heç bir məhdudiyyət də yoxdur. Hər ayın 5-nə qədər yeni nömrə çıxır. İndi məsələn, may ayının 5-i üçün artıq nömrə hazırdır. Elektron variantda da var, kağız versiyada da satışdadır. Hər iki formatda əldə etmək olar.

Sadəcə bir məsələ var ki, onu qeyd etmək istəyirəm. O da odur ki, bəziləri bir dəfə yazır, dayanırlar. Amma bəziləri dayanmır, çalışır, davam edir və nəticə əldə edir. Məsələn, biz bu yaxınlarda Elmlər Akademiyasında bir  layihə çərçivəsində yeni kitabların tanıtımı ilə bağlı müzakirə etdik. Mən demişəm, məsələn, Rəvan Cavidin həm romanı, həm hekayələri var. Poeziyadan soruşsanız, İntiqam Yaşar var. Belə gənclər var. Siz də, məsələn, jurnalist kimi öz sahənizdə fəaliyyət göstərirsiniz və əminəm ki, əməyiniz qiymətləndirilməlidir. Əgər qrupunuzda 25 nəfər varsa, siz, mənim fikrimcə, onların içində ilk beşlikdəsiniz. Və sizə bir tövsiyə vermək istəyirəm: müəllimlərin fikrinə hörmətlə yanaşmaq lazımdır. Mən indiyə qədər ən azı beş təhsil müəssisəsində olmuşam. Həmişə müəllimlər deyib ki, ya Zaur birincidir, ya ikincidir, ya da beşliyin içindədir. Bu da onu göstərir ki, müəllimlər həmişə düz deyirlər. Mən bunu özümdə də hiss etmişəm.  Müəllimlərə həmişə hörmət etməli, onların seçimlərinə hörmətlə yanaşmalı, tapşırıqları yerinə yetirməliyik.

**Söhbətləşdi: Zeynəb Mustafazadə**
*Jurnalist*

**Zaur Ustacla müsahibə:**

**– Zaur bəy, ilk öncə, oxucularımız üçün özünüzü necə təqdim edərdiniz?**
– Mənim üçün ən sadə və doğru təqdimat yəqin ki, yurduna, xalqına, adət və ənənələrinə bağlı “şair Zaur Ustac” ifadəsi uyğun gələr.
**– Kitab və kitabçılıqla əlaqəli təbliğat məsələlərində digər həmkarlarınızdan çox seçilirsiniz. Bu nə ilə bağlıdır?**
– Mən bu barədə onu deyə bilərəm ki, kənardan necə görünməsindən asılı olmayaraq sadəcə ürəyimdən keçənlərin hamısını həyata keçirməyə çalışıram. Yazmaq, kitab həyatımın mənası bəlkə də yeganə yaşam səbəbimdir. Çünki həyatımın hər mərhələsi kitablarla bağlı olub. Uşaqlıqdan kitablar mənim ən yaxın dostum, müəllimim, hətta sirdaşım olub. Sonradan yazmaq da təbii bir ehtiyac kimi formalaşdı. Məncə, mənim həyatda missiyam elə bundan ibarətdir.
**– Yazmağa nə vaxt başladınız? İlk qələm təcrübəniz necə oldu?**
– İlk yazılarım məktəb illərinə təsadüf edir. Həmin vaxt qısa şeirlər yazırdım. Sonra hiss etdim ki, söz mənim üçün sadəcə ifadə vasitəsi deyil, həm də mənəvi bir dayaqdır. Ədəbi yaradıcılığımın əsas məqsədi də məhz insanlara bu dayaqdan pay verməkdir.

**– Yaradıcılığınızda əsas mövzular hansılardır?**
– Mənim poeziyamda bir neçə əsas xətt var: Ana mövzusu, Vətən sevgisi, Türk dünyası ideyası və Bütöv Azərbaycan arzusu. Bunlar mənim üçün sadəcə mövzular deyil, həyat fəlsəfəmdir.
**– Ana mövzusu yaradıcılığınızda niyə bu qədər mühümdür?**
– Ana həm mənim şəxsi həyatımda, həm də ümumbəşəri mənada müqəddəs bir varlıqdır. Ananın obrazı sadəcə bioloji deyil, həm də mədəni, mənəvi və ilahi anlam daşıyır. Mənim üçün Ana dünyanı izah edən, onu yaşadan əsas rəmzdir.
**– Zaur Ustacın poeziyasında Türk dünyası mövzusu xüsusi yer tutur. Bu, sizin üçün nə ifadə edir?**
– Türk dünyası bir ruh, bir qan yaddaşı, bir dil sevgisidir. Mənim arzularımdan biri türkün hər yerdə birliyini, həmrəyliyini görməkdir. Şeirlərimdə bu hissləri yaşatmağa çalışıram. Mənə görə, Türk dünyası həm tarixi kökümüz, həm də gələcək ümidimizdir.
**– Müasir Azərbaycan ədəbiyyatında özünüzü necə görürsünüz?**
– Mən özümü bu ədəbiyyatın bir parçası hesab edirəm. Burada çox dəyərli yazarlar var və hər kəs öz payını söz meydanına gətirir. Mənim də missiyam – oxucunun ruhuna toxunan, onu düşündürən, həm də ümid verən sözlər deməkdir.
**– Ədəbiyyatla yanaşı publisistika ilə də məşğulsunuz. Bunun səbəbi nədir?**
– Məncə, yazıçı yalnız poeziya ilə

kifayətlənməməlidir. Cəmiyyətin gündəlik problemlərinə də sözlə işıq salmaq vacibdir. Publisistika mənim üçün ədəbiyyatın daha operativ qanadıdır.

**– Oxucularınıza hansı mesajı vermək istərdiniz?**

– Oxucuya mesajım çox sadədir: kitab oxuyun, sözdən ayrı düşməyin. Çünki söz insana həm kimliyini, həm də yolunu göstərir. Sözünü itirən xalq gələcəyini də itirir.

**Söhbətləşdi: Günnur AĞAYEVA**,
*müstəqil ədəbiyyatşünas-tənqidçi*

# SON SÖZ

**Sözün Sərkərdəsi – Zaur Ustac**

Hər xalqın taleyində öz qələmi ilə tarix yazan, özü ilə bir dövrü izah edən şəxsiyyətlər var. Onlar qələminin mübarizəsi ilə sinəsini düşmənə sipər edən, hər misrasında millətinin ağrılarını, sevincini, yaddaşını yaşadan əbədi izlər buraxırlar. Bu şəxsiyyətlərdən biri də – sözün əsgəri, vətənin şairi, publisist, müharibə iştirakçısı, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü, “Qızıl Qələm” mükafatı laureatı, Prezident təqaüdçüsü – Zaur Mustafa oğlu Mustafayev, tanınan ədəbi adı ilə Zaur Ustacdır.

Zaur Ustac təkcə bir şair deyil – o, döyüşçü ruhun, xalq yaddaşının və əbədi vətən sevgisinin canlı simvoludur. Onun misraları yalnız söz deyil, həm də yaddaşdır, tarixdir, torpaq uğrunda tökülən qanların qırmızı rəngini daşıyan bir haqqın səsləndirilməsidir.

Birinci Qarabağ müharibəsinin iştirakçısı olan Zaur müəllimin şeirləri və publisistik yazıları sadəcə ədəbi nümunə deyil, həm də mübariz bir insanın yaşadığı ağrını, gördüyü həqiqətləri və çəkdiyi dərdləri cəmiyyətə çatdırmaq üçün bir çağırışdır. O, silahı ilə vətəni qoruduğu kimi, qələmi ilə də ruhumuzu qorumaqdadır.

Zaur Ustacın qələmindən süzülən hər bir misra sanki şəhid ruhlarının pıçıltısı, Qarabağ dağlarının ahəngi, ana dualarının nəfəsidir. Onun yazdıqları milli ruhun

və mənəvi dəyərlərin aynasıdır. Vətən dərdi ilə yoğrulan qəlbində, sətir-sətir millət sevgisi, xalq sevgisi yaşamaqdadır.

O, qələmini təmiz saxlayan, sözünü qoruyan və millətin ruhuna sahib çıxan bir sənətkardır. Zaur müəllim sadəcə söz adamı deyil – o, zamanın sözlə çəkilmiş rəsmi, müharibənin poetik salnaməçisidir.

Bu gün cəmiyyətimizin belə simalara ehtiyacı var – həm döyüşçü, həm də düşüncə adamı olan, xalqın ağrısını içində çəkən, amma onu sənətlə təskinləşdirən… Zaur Ustac belə bir şəxsiyyətdir.

Onun adı bu xalqın yaddaşına qazınmış bir işıqdır. Və əminik ki, gələcək nəsillər də onu – sözün sərkərdəsi, ədalətin qələmi, haqqın şairi kimi tanıyacaq.

Səni tanımaq, səninlə qürur duymaq bir millət borcudur, Zaur müəllim!

**Sonsuz ehtiramla**, **Pərvanə Salmanqızı**
*ictimai xadim, jurnalist, şair-publisist*

# MÜNDƏRİCAT

ÖN SÖZ ........................................................................ 4
MUNİS YAZILAR........................................................... 10
MÜSAHİBƏLƏR ........................................................... 74
SON SÖZ ..................................................................... 95

**Bu kitab "Yazarlar" jurnalı tərəfindən həyata keçirilən uzun müddətli Zaur Ustac – 50 layihəsi çərçivəsində çap olunub.**

# KİTABIN TƏRTİBÇİSİ HAQQINDA

***Günnur Ağayeva*** *- Ağayeva Günnur Hafiz qızı 1994 – cü ildə Bakı şəhərində anadan olub.*
*Müstəqil ədəbiyyatşünas və ədəbi tənqidçidir.*
*Filologiya üzrə Təfəkkür Universitetində bakalavr, Odlar Yurdu Universitetində isə magistr pilləsində təhsil almışdır.*
*Hal-hazırda Bakı şəhərində yaşayır.*
*"Yazarlar" jurnalında* ***Ədəbi tənqid məsələləri üzrə menecer*** *kimi fəaliyyət göstərir.*

Mustafa Müseyiboğlu adına kitabxana

# QEYDLƏR







***Üzqabığının müəllifi: Gülü-Gülüzə Mustafayeva.***

Mustafa Müseyiboğlu adına kitabxana

***Günnur Ağayeva (Ağayeva Günnur Hafiz qızı )***

## ***“Munis yazılar - 2”***

Ön söz: Cahangir Namazov.
Redaktor: Hacıxanım Aida.
Baş məsləhətçi: Südabə Məmmədova.
Son söz: Pərvanə Salmanqızı.
Naşir: Tuncay Şəhrili.

---

Kitab “Yazarlar”ın kompüter mərkəzində yığılıb,
**“JET PRİNT ÇAP MƏRKƏZİ”**NDƏ çap olunub.
***(“Jet Print”də operativ xidmət: +994557232221***).
Təşkilati dəstək: www.ustac.az *(qeyri-kommersiya).*
Üzqabığının müəllifi: Gülü-Gülüzə Mustafayeva.
Kompüter tərtibatı: Tuncay Şəhrili.
Çapa imzalanıb: 25.07.2025.
Qiyməti: **PULSUZ**.
Kitab xeyriyyə məqsədi ilə nəşr olunub, heç bir kommersiya marağı yoxdur və gəlir əldə olunması nəzərdə tutulmur.
Sayı: Məhdud sayda (elektron variantı var).
E-kitab hazırlanıb elektron kitabxanalara yerləşdirilir.
Müəllif hüquqları qorunur.

Əlaqə: Tel: (**+994**) 70-390-39-93
E-mail: zauryazar@mail.ru F/b:Zaur Ustac .
**<<<< WWW.YAZARLAR.AZ və WWW.USTAC.AZ >>>>**